Crowe

# "KredAqro" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti

2022-ci il maliyyə hesabatları və
müstəqil auditorun hesabatı

Audit | Tax | Advisory

MÜNDƏRİCAT

31 DEKABR 2022-CI IL TARIXINDƏ BITƏN IL ÜZRƏ MALIYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏQDIM EDILMƏSI ILƏ BAĞLI RƏHBƏRLIYIN MƏSULIYYƏT BƏYANNAMƏSI ........ 1
MÜSTƏQIL AUDITORUN HESABATI ........ 2
MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT ........ 5
MALIYYƏ VƏZIYYƏTI HAQQINDA HESABAT ........ 6
PUL VƏSAITLƏRININ HƏRƏKƏTI HAQQINDA HESABAT ........ 7
KAPITALDA DƏYIŞIKLIKLƏR HAQQINDA HESABAT ........ 8
MALİYYƏ HESABATLARI ÜZRƏ ŞƏRHLƏR VƏ QEYDLƏR ........ 9
1. KORPORATIV MƏLUMATLAR ........ 9
2. CƏMIYYƏTIN ƏMƏLIYYAT MÜHITI ........ 9
3. ƏSAS MÜHASIBAT PRINSIPLƏRININ XÜLASƏSI ........ 10
4. UÇOT SIYASƏTININ TƏTBIQI ZAMANI ƏHƏMIYYƏTLI EHTIMALLAR VƏ MÜLAHIZƏLƏR ........ 19
5. YENI VƏ YENIDƏN IŞLƏNMIŞ STANDARRTLARIN VƏ ONLARA DAIR ŞƏRHLƏRIN TƏTBIQI ........ 19
6. XALIS FAIZ GƏLIRLƏRI /(XƏRCLƏRI) ........ 21
7. XALIS KOMISSIYA VƏ XIDMƏT GƏLIRLƏRI/ (XƏRCLƏRI) ........ 22
8. İŞÇI HEYƏTI ÜZRƏ XƏRCLƏR ........ 22
9. AMORTIZASIYA XƏRCLƏRI ........ 22
10. DIGƏR GƏLIRLƏR/(XƏRCLƏR) ........ 23
11. ÜMUMI INZIBATI XƏRCLƏR ........ 23
12. PUL VƏSAITLƏRI VƏ ONLARIN EKVIVALENTLƏRI ........ 23
13. MALIYYƏ INSTITUTLARINA VERILMIŞ DEPOZITLƏR ........ 24
14. MÜŞTƏRILƏRƏ VERILMIŞ KREDITLƏR ........ 24
15. ƏMLAK, TIKILI VƏ AVADANLIQ VƏ QEYRI-MADDI AKTIVLƏR ........ 27
16. SATILANADƏK SAXLANILAN AKTIVLƏR ........ 28
17. DIGƏR AKTIVLƏR ........ 28
18. DIGƏR ÖHDƏLIKLƏR ........ 28
19. BORC ÖHDƏLIKLƏRI ........ 29
20. NIZAMNAMƏ KAPITALI ........ 30
21. KAPITAL EHTIYATLARI ........ 30
22. MƏNFƏƏT VERGISI ........ 31
23. ŞƏRTI ÖHDƏLIKLƏR ........ 32
24. ƏLAQƏLI TƏRƏFLƏRLƏ ƏMƏLIYYATLAR ........ 33
25. MALIYYƏ ALƏTLƏRININ ƏDALƏTLI DƏYƏRI ........ 34
26. MALIYYƏ RISKLƏRININ IDARƏ EDILMƏSI ........ 35
27. HESABAT TARIXINDƏN SONRA BAŞ VERMIŞ HADISƏLƏR ........ 41

## 31 dekabr 2022-ci il tarixində bitən il üzrə maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi ilə bağlı rəhbərliyin məsuliyyət bəyannaməsi

Aşağıdakı bəyanat, müstəqil auditorların hesabatının auditorların rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "Kredaqro" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixində bitən il üzrə maliyyə vəziyyətini, fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə rəhbərlik məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Cəmiyyətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Cəmiyyətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Cəmiyyətin fəaliyyət göstərdiyi ölkədə qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

31 dekabr 2022-ci il tarixində bitən il üzrə maliyyə hesabatları Cəmiyyətin rəhbərliyi tərəfindən 6 mart 2023-cü ildə təsdiq edilmişdir.

**Rəhbərlik adından:**

**Hidayət Həsənov**
*Direktor*

AZƏRBAYCAN RESPUBLİKASI "KredAqro" BANK OLMAYAN KREDİT TƏŞKİLATI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

**Xatirə Mehdiyeva**
*Baş mühasib*

Crowe

Baltic Caspian Audit LLC
*Member Firm of Crowe Global*

OSKAR Business Center, 3rd floor
Tbilisi avenue, block 3001
Baku, AZ1000, Azerbaijan
Tel: +994 (55) 200 20 77
www.crowe.com/az/balticcaspian

# Müstəqil auditorun hesabatı

**"KredAqro" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarına və İdarə heyətinə**

## Rəy

Biz "KredAqro" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Cəmiyyət") 31 dekabr 2022-ci il tarixinə təqdim edilən mənfəət və zərərlər haqqında hesabatdan, maliyyə vəziyyəti haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, qoşma maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il umun pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

## Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik tələblərə uyğun olaraq Şirkətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

## Digər məsələlər

Əvvəlki auditor "KredAqro" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyətinin 31 dekabr 2021-cu il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının auditini aparmışdır və 31 mart 2022-ci il tarixində bu hesabatlara dair müsbət rəy bildirmişdir.

## Əsas Audit Məsələləri

Əsas audit məsələləri peşəkar mülahizəmizə görə, cari dövrün maliyyə hesabatlarının auditi zamanı ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi kontekstində və onlara dair rəyimizi formalaşdırarkən nəzərə alınmışdır və biz bu məsələlərlə bağlı ayrıca rəy bildirmirik.

## Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

*Baltic Caspian Audit LLC is a member of Crowe Global, a Swiss verein (Crowe). Each member firm of Crowe is a separate and independent legal entity. Baltic Caspian Audit Ltd is not responsible or liable for any acts or omissions of Crowe or any other member of Crowe and specifically disclaim any and all responsibility or liability for acts or omissions of Crowe or any other Crowe member.*
*© 2023 Baltic Caspian Audit*

Crowe

Baltic Caspian Audit LLC
*Member Firm of Crowe Global*

OSKAR Business Center, 3rd floor
Tbilisi avenue, block 3001
Baku, AZ1000, Azerbaijan
Tel: +994 (55) 200 20 77
www.crowe.com/az/balticcaspian

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.

- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edimәsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

*Baltic Caspian Audit LLC is a member of Crowe Global, a Swiss verein (Crowe). Each member firm of Crowe is a separate and independent legal entity. Baltic Caspian Audit Ltd is not responsible or liable for any acts or omissions of Crowe or any other member of Crowe and specifically disclaim any and all responsibility or liability for acts or omissions of Crowe or any other Crowe member.*
*© 2023 Baltic Caspian Audit*

Baltic Caspian Audit LLC
*Member Firm of Crowe Global*

OSKAR Business Center, 3rd floor
Tbilisi avenue, block 3001
Baku, AZ1000, Azerbaijan
Tel: +994 (55) 200 20 77
www.crowe.com/az/balticcaspian

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

"Baltik Kaspian Audit" MMC adından

Samir Əsədullayev
*İdarəedici tərəşdaş*

Bakı, Azərbaycan Respublikası
6 mart 2023-cü il

Rəy № dlHeHDPBgh

Baltic Caspian Audit LLC is a member of Crowe Global, a Swiss verein (Crowe). Each member firm of Crowe is a separate and independent legal entity. Baltic Caspian Audit Ltd is not responsible or liable for any acts or omissions of Crowe or any other member of Crowe and specifically disclaim any and all responsibility or liability for acts or omissions of Crowe or any other Crowe member.
© 2023 Baltic Caspian Audit

## Mənfəət və zərər haqqında hesabat

| | Qeyd | 2022-ci il | 2021-ci il |
|---|---|---|---|
| **DAVAM EDƏN FƏALİYYƏT** | | | |
| Faiz gəlirləri | 6 | 1,109,237 | 1,184,779 |
| Faiz xərcləri | 6 | (77,280) | (248,357) |
| ***Xalis faiz gəlirləri*** | | **1,031,957** | **936,422** |
| Gözlənilən kredit zərərləri (GKZ) üzrə ehtiyatların bərpası/(xərclər) | | 729,224 | 653,851 |
| ***GKZ ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri*** | | **1,761,181** | **1,590,273** |
| Xalis komissiya və xidmət gəlirləri/ (xərcləri) | 7 | 135,329 | (73,591) |
| İşçi heyəti üzrə xərclər (-) | 8 | (1,133,187) | (1,170,604) |
| Amortizasiya xərcləri (-) | 9 | (182,256) | (171,435) |
| Ümumi inzibati xərclər (-) | 11 | (715,190) | (1,442,651) |
| Digər gəlirlər/(xərclər) | 10 | (281,219) | (143,328) |
| ***Xalis qeyri-faiz gəlirləri/(xərcləri)*** | | **(2176,523)** | **(3,001,609)** |
| ***Vergitutmadan əvvəl mənfəət (zərər)*** | | **(415,342)** | **(1,411,336)** |
| Mənfəət vergisi | 22 | 699,423 | (27,618) |
| ***Davam edən fəaliyyətdən xalis mənfəət (zərər)*** | | **284,081** | **(1,438,954)** |
| **DAYANDIRILMIŞ FƏALİYYƏT** | | | |
| Dayandırılmış fəaliyyətdən il üzrə vergidən sonra mənfəət/(zərər) | | - | - |
| **İl üzrə xalis mənfəət /(zərər)** | | **284,081** | **(1,438,954)** |

6 mart 2023-cü il tarixində Rəhbərlik adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

**Rəhbərlik adından:**

Hidayət Həsənov
*Direktor*

Xatirə Mehdiyeva
*Baş mühasib*

## Maliyyə vəziyyəti haqqında hesabat

| | Qeyd | 2022-ci il | 2022-ci il | 2022-ci il |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 114,462 | 545,543 | 513,355 |
| Maliyyə institutlarına verilmiş depozitlər | 13 | 446,661 | 1,184 | 1,387,055 |
| Müştərilərə verilmiş kreditlər | 14 | 5,315,705 | 4,324,070 | 6,143,002 |
| Təxirə salınmış vergi aktivləri | 22 | 703,980 | 4,557 | 32,175 |
| Satışa qədər saxlanılan aktivlər | 16 | 1.186,851 | 1,479,129 | 1,599,183 |
| Əmlak, tikili və avadanlıq | 15 | 598,020 | 1,019,170 | 1,390,922 |
| Qeyri-maddi aktivlər | 15 | 39,616 | 77,214 | 96,344 |
| Digər aktivlər | 17 | 416,012 | 171,064 | 182,085 |
| ***Cəmi aktivlər*** | | **8,821,307** | **7,621,931** | **11,344,121** |
| **KAPITAL VƏ ÖHDƏLIKLƏR** | | | | |
| **KAPİTAL** | | | | |
| Ödənilmiş nominal (Nizamnamə) kapitalı | 20 | 452.300 | 452,300 | 452,300 |
| Kapital ehtiyatları | 21 | 1,593,963 | 1,593,963 | 1,593,963 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 2,865,204 | 2,581,123 | 4,020,077 |
| **Təsisçilərin payına düşən kapital** | | **4,911,467** | **4,627,386** | **6,066,340** |
| Qeyri nəzarət payı | | - | - | - |
| ***Cəmi kapital*** | | **4,911,467** | **4,627,386** | **6,066,386** |
| **ÖHDƏLIKLƏR** | | | | |
| Maliyyə institutlarından uzunmüddətli borclar | 19 | 1,207,362 | 1,553,364 | 1,908,468 |
| Əlaqəli tərəflərdən qısamüddətli borclar | 19 | 510,000 | - | |
| Qiymətli kağızlar – istiqrazlar | 19 | 960,940 | - | |
| Əlaqəli tərəflərdən uzunmüddətli borlar | 19 | 850,000 | 850,000 | 2,890,000 |
| Hesablanmış ödəniləcək faizlər | 19 | 13,313 | 161,446 | 175,462 |
| Digər öhdəliklər | 18 | 368,225 | 429,735 | 303,851 |
| ***Cəmi öhdəliklər*** | | **3,909,840** | **2,994,545** | **5,277,781** |
| ***Cəmi kapital və öhdəliklər*** | | **8,821,307** | **7,621,931** | **11,344,121** |

# Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | Qeyd | 2022-ci il | 2021-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergitutmadan əvvəl mənfəət (xərclər) | | (415,342) | (1,411,336) |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| • Əmlak, tikili və avadanlıqların amortizasiyası | 15 | 150,816 | 152,305 |
| • Qeyri-maddi aktivlərin qiymətdən düşməsi | 15 | 25,440 | 19,130 |
| İşçi kapitalda maddələr üzrə baş verən dəyişikliklər: | | | |
| • Maliyyə institutlarına verilmiş kreditlər | | (445,477) | 1,385,871 |
| • Müştərilərə verilmiş kreditlər | | (991,635) | 1,818,932 |
| • Satışa qədər saxlanılan aktivlər | | 292,278 | 120,054 |
| • Digər aktivlər | | (244,948) | 11,021 |
| • Hesablanmış ödəniləcək faizlər | | (148,133) | (14,016) |
| • Digər öhdəliklər | | (61,510) | 125,884 |
| Ödənilmiş mənfəət vergisi | | - | - |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **(1,832,511)** | **2,207,845** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 15 | (164,043) | (12,355) |
| Xaric olunmuş əsas vəsaitlərin qalıq dəyəri | | 428,377 | - |
| Xaric olunmuş aktivlərin qalıq dəyəri | | 12,158 | 231,802 |
| ***İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **276,492** | **219,447** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Maliyyə institutlarından uzunmüddətli borclar | 19 | (346,002) | (355,104) |
| Əlaqəli tərəflərdən qısamüddətli borlar | 19 | 510,000 | - |
| Qiymətli kağızlar – istiqrazlar | 19 | 960,940 | - |
| Əlaqəli tərəflərdən uzunmüddətli borlar | 19 | - | (2,040,000) |
| ***Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **1,124,938** | **(2,395,104)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **(431,081)** | **32,188** |
| 1 Yanvar tarixinə pul vəsaitləri | 12 | 545,543 | 513,355 |
| 31 Dekabr tarixinə pul vəsaitləri | 12 | 114,462 | 545,543 |

## Kapıtalda dəyişikliklər haqqında hesabat

| | Qeyd | Nizamnamə kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2021 tarixə qalıq** | | **452,300** | **1,593,963** | **4,020,377** | **6,066,340** |
| İl üzrə xalis mənfəət/(zərər) | | | | (1,438,954) | **(1,438,954)** |
| Nizamnamə kapitalına qoyuluş | | | | | |
| Mülkiyyətçilərə aid kapitalın ödənilməsi - dividend | | | | | |
| **31 dekabr 2021 tarixə qalıq** | | **452,300** | **1,593,963** | **2,581,123** | **4,627,386** |
| İl üzrə xalis mənfəət/(zərər) | | | | 284,081 | 284,081 |
| Nizamnamə kapitalına qoyuluş | | | | | |
| Mülkiyyətçilərə aid kapitalın ödənilməsi - dividend | | | | | |
| **31 dekabr 2022 tarixə qalıq** | | **452,300** | **1,593,963** | **2,865,204** | **4,911,467** |

# MALİYYƏ HESABATLARI ÜZRƏ ŞƏRHLƏR VƏ QEYDLƏR

## 1. Korporativ məlumatlar

"KredAqro" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyəti ("Cəmiyyət"), 28 avqust 2000-ci il tarixində 30 saylı şəhadətnamə ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmış "CredAqro" Bank Olmayan Kredit Təşkilatı Qapalı Səhmdar Cəmiyyətinin bazasında yaradılmış və onun hüquqi varisidir.

Cəmiyyətin yeganə təsisçisi Rusiya Federasiyasında qeydiyyatdan keçən və qanunvericiliyi əsasında fəaliyyət göstərən "AqroMostFinans" MMC şirkətidir.

Cəmiyyət AZ1075, Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli, ev 1, 6B, mənzil Badamdar Plaza BM, Mərtəbə 1 ünvanında yerləşir.

Cəmiyyətin hüquqi təşkilat strukturu və adı "KredAqro" Bank Olmayan Kredit Təşkilatı Qapalı Səhmdar Cəmiyyətindən "KredAqro" Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyyətinə dəyişdirilərək 6 oktyabr 2017-ci il tarixində yenilənmiş nizamnaməsi dövlət qeydiyyatından keçmişdir.

Cəmiyyətin fəaliyyəti, Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən tənzimlənir və Cəmiyyətə verilmiş 14 noyabr 2017-ci il tarixli 119-GB nömrəli (15 iyul 2015-ci il tarixli lisenziyanın əvəzinə) lisenziya əsasında fəaliyyət göstərir. Cəmiyyətin əsas fəaliyyəti kreditlərin verilməsindən ibarətdir.

## 2. Cəmiyyətin əməliyyat mühiti

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək artımı və dayanıqlığı hökumətin həyata keçirdiyi fiskal və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

Neft qiymətlərində azalma və milli valyutanın əsas xarici valyutalara qarşı devalvasiyasının mənfi nəticəsi olaraq 2016-cı ildə ölkədə baş vermiş kəskin iqtisadi böhrandan sonra Azərbaycan hökuməti tərəfindən uzunmüddətli iqtisadi sabitliyi və dayanıqlığı təmin etmək məqsədilə islahatlar sürətləndirilmişdir. İnstitusional dəyişiklikləri əhatə edən iqtisadi islahatlara əsasən inflyasiya aşağı birrəqəmli səviyyədə sabitləşmiş, iqtisadi artım pozitiv zonada qalmaqda davam etmiş, milli valyutanın məzənnəsi dayanıqlı səviyyədə olmuş və ölkənin xarici sektorunda müsbət tendensiyalar müşahidə olunmuşdur.

Bir sıra qeyri-sabit sistem risklərinə baxmayaraq, borcların ödənilməsi ilə yanaşı Cəmiyyət sektorunun sabitliyi də təmin edilmişdir. "Fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrası fiziki şəxslərin borclarının ödənilməsi və vaxtı keçmiş kredit borclarının restrukturizasiyasına gətirib çıxarmış, eləcə də Cəmiyyət sektorunda problemli kreditlər məsələsinin həllini təmin etmişdir.

2020-ci il ərzində beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqini "sabit proqnoz" səviyyəsində saxlayıb. 2020-ci ilin aprel ayında bu proqnoz "müsbət" səviyyəyə yüksəldilib.

12 mart 2020-ci il tarixində Dünya Səhiyyə Təşkilatı COVID-19 epidemiyasını qlobal pandemiya elan etmişdir. Azərbaycan hökuməti tərəfindən COVID-19 pandemiyasının yayılmasının qarşısının alınması və

mənfi təsirlərinin azaldılması məqsədilə hərəkətin məhdudlaşdırılması ilə bağlı tədbirlər, o cümlədən karantin, özünütəcrid və ticarət fəaliyyətinin məhdudlaşdırılması, o cümlədən müəssisələrin bağlanması kimi bir sıra tədbirlər görülmüşdür. Yuxarıda qeyd olunan tədbirlər 2020 və 2021-ci il ərzində qismən yumşaldılmışdır. Bu tədbirlər Azərbaycanda iqtisadi fəaliyyəti əhəmiyyətli dərəcədə məhdudlaşdırmış və biznes subyektlərinə, bazar iştirakçılarına, Cəmiyyətın müştərilərinə, habelə yerli və qlobal iqtisadiyyata mənfi təsir göstərmiş və gələcəkdə qeyri-müəyyən müddət təsir göstərməkdə davam edə bilər.

COVID-19 pandemiyası ilə yanaşı, 27 sentyabr 2020-ci il tarixində Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ və ətraf rayonlarında Azərbaycan və Ermənistan arasında yenidən hərbi əməliyyatlar başlamışdır. 9 noyabr 2020-ci il tarixində imzalanmış atəşkəs razılaşmasına əsasən 10 noyabr 2020-ci il tarixindən etibarən Dağlıq Qarabağ və ətraf bölgələrindəki bütün hərbi əməliyyatlar dayandırılmışdır.

Siyasi və iqtisadi vəziyyətin mövcud təsirlərini proqnozlaşdırmaq çətindir, lakin bunun Azərbaycan iqtisadiyyatına təsiri daha çox ola bilər və bu da dövlət maliyyəsinin pisləşməsinə, maliyyə bazarlarının qeyri-sabitliyinə, kapital bazarlarında qeyri-likvidliyə, inflyasiyanın artmasına və milli valyutanın əsas xarici valyutalara nisbətdə dəyərdən düşməsinə gətirib çıxara bilər.

**Ukraynada müharibə**

Ukraynada 2022-ci ildə başlayan müharibə maliyyə hesabatlarına təsir edən bir sıra BMHS mühasibat uçotu mülahizələrini işə salır.

Bir çox ölkələr Rusiyanın müəyyən qurumlarına və fiziki şəxslərinə qarşı yeni sanksiyalar tətbiq edib və tətbiq etməkdə davam edir. Belarusa qarşı da sanksiyalar tətbiq edilib. Əmtəə qiymətlərində, valyuta məzənnələrində, idxal və ixracda məhdudiyyətlər, yerli materialların və xidmətlərin mövcudluğu və yerli resurslara çıxış imkanları ilə birlikdə vəziyyət Rusiya, Belarus və ya Ukraynada əhəmiyyətli əməliyyatları və ya riskləri olan təşkilatlara birbaşa təsir edəcək. .

Müharibə və onun birbaşa və dolayı nəticələri, məsələn, əmtəə qiymətlərində və valyuta məzənnələrindəki dalğalanmalara məruz qalma nəticəsində, eləcə də uzunmüddətli iqtisadi tənəzzül ehtimalı nəticəsində, cəlb olunmuş ölkələrdə birbaşa maraqları olan qurumlardan başqa qurumlara təsir göstərə bilər. .

Müharibə davam etdikcə və yeni sanksiyalar tətbiq olunduqca ümumi təsir maye olaraq qalır. Təsir həm də böyük ölçüdə müəssisənin biznesinin xarakterindən asılı olduğundan, hər hansı potensial təsir bu maliyyə hesabatlarında təsvir olunmamışdır.

Rəhbərlik, həmçinin Cəmiyyətın fəaliyyətinin dayanıqlığını təmin etmək, öz müştərilərinə və işçilərinə dəstək olmaq üçün bütün lazımi tədbirləri görür.

## 3. Əsas mühasibat prinsiplərinin xülasəsi

Aşağıdakı uçot siyasətləri hazırkı maliyyə hesabatlarında əks olunmuş bütün dövrlərə ardıcıl qaydada tətbiq olunur.

**Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları**

Hazırkı maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərdə tanımaqla, Maliyyə Hesabatı Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Bu maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot siyasətləri aşağıdakı formada göstərilir:

**Fasiləsizlik prinsipi**

Bu maliyyə hesabatları Cəmiyyətin daimilik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

**Məzənnə göstəricisi**

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta göstərilmədiyi halda Azərbaycan manatı ("AZN") ilə təqdim olunmuşdur.

**Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları**

*Ədalətli dəyər* qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərə və maliyyə alətlərinin sayına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Fəal bazarda alınıb-satılmayan digər maliyyə aktivləri və öhdəlikləri üzrə portfel mövcud bazar şəraitində qiymətləndirmə tarixinə bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən müəyyən riskin qəbul edilməsi üçün xalis uzun mövqenin (yəni, aktivin) satılması və ya müəyyən riskin qəbul edilməsi üçün xalis qısa mövqenin (yəni, öhdəliyin) ötürülməsi məqsədilə əldə edilə biləcək qiymət əsasında maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupunun ədalətli dəyərində qiymətləndirilir. Bu, dövri olaraq ədalətli dəyərdə qeydə alınan aktivlərə o şərtlə tətbiq edilir ki, Cəmiyyət (a) müəssisənin risklərin idarə edilməsi və ya investisiya strategiyasına uyğun olaraq məruz qaldığı müəyyən bazar riski (və ya risklərinə) və ya müəyyən kontragentin kredit riskinə əsasən maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupunu idarə edir; (b) həmin prinsipə əsasən maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupu haqqında məlumatı müəssisənin baş rəhbərliyinə təqdim edir; və (c) bazar riskləri, o cümlədən müəssisənin maliyyə aktivləri və maliyyə öhdəlikləri ilə əlaqədar məruz qaldığı müəyən bazar riskinin (və ya risklərinin) müddəti əsasən eyni olur. Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir.

- (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir,
- (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir
- (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr,

eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

*Amortizasiya olunmuş dəyər* (AD) əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir.

Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər-hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin fəaliyyət müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dərəcədir.

**Maliyyə alətlərinin ilkin tanınması**

MZƏD kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri və ədalətli dəyərin dəyişməsi sair məcmu gəlirə aid edilən ("DMGƏD") borc alətlərinə investisiyalar üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Cəmiyyətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

**Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə kateqoriyaları**

Cəmiyyət maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə təsnifləşdirir və ölçür. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Cəmiyyətin biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

**Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model**

Biznes model Cəmiyyətin nağd pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Cəmiyyətin məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və MZƏD kateqoriyasında ölçülür.Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən

edilmiş məqsədlərə nail olmaq üçün Cəmiyyətin həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir.

Biznes modelin müəyyən edilməsi zamanı Cəmiyyətin nəzərə aldığı amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə yanaşmalar və aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları daxildir.

**Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: pul axınlarının xüsusiyyətləri**

Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsini və maliyyə aktivlərinin satılması üçün saxlanılmasını nəzərdə tutduqda, Cəmiyyət pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (YƏBFÖ təhlili). Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, müvafiq maliyyə aktivi KRƏA kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. YƏMBÖ təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir.

**Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi**

Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada – biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Cəmiyyət cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi: gözlənilən kredit zərərləri üzrə ehtiyat**

Cəmiyyət amortizasiya olunmuş dəyərdə ölçülən borc alətləri üzrə gözlənilən kredit zərərlərini (GKZ) proqnozlar əsasında qiymətləndirir. Cəmiyyət hər bir hesabat tarixində gözlənilən kredit zərərlərini qiymətləndirir və kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatı tanıyır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu *ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat* tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat Amortizasiya olunmuş dəyərdə ölçülən borc alətləri gözlənilən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

Cəmiyyət maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir. İlkin tanınma zamanı dəyərsizləşməmiş maliyyə aləti 1-ci mərhələyə təsnifləşdirilir. 1-ci mərhələdə maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri növbəti 12 ay ərzində və ya müqavilədə nəzərdə tutulan ödəniş tarixinə qədər (12 ay bitənə qədər) baş verə bilən defolt hadisələri nəticəsində yaranmış bütöv müddət üçün gözlənilən kredit zərərləri ("12 aylıq gözlənilən kredit zərəri") məbləğində qiymətləndirilir. Cəmiyyət ilkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə artımın ("KRƏA") baş verdiyini müəyyən edərsə, aktiv 2-ci mərhələyə köçürülür və həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında, yəni müqavilədə göstərilən ödəmə tarixinə qədər, lakin gözlənilən hər hansı qabaqcadan ödənişləri nəzərə almaqla ("bütöv müddət üçün gözlənilən kredit zərərləri") qiymətləndirilir. KRƏA baş verdiyi zaman Şirkətin necə müəyyən etdiyinin təsviri 26-ci Qeyddə göstərilmişdir.

Cəmiyyət maliyyə aktivinin kredit baxımından dəyərsizləşdiyini müəyyən edərsə, aktiv 3-cü mərhələyə köçürülür və onun gözlənilən kredit zərəri daimi olaraq eyni formada ölçülür. Cəmiyyətin kredit baxımından dəyərsizləşmiş aktivlərinin və defoltun tərifi 26-ci Qeyddə izah edilmişdir. Qeyddə gözlənilən kredit zərərinin ölçülməsində istifadə olunan məlumatlar, fərziyyələr və qiymətləndirmə üsulları haqqında məlumatı, o cümlədən Cəmiyyətin gələcək perspektivli məlumatları gözlənilən kredit zərərinin modellərinə necə daxil etməsinin izahı əks olunmuşdur.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

**Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları**

Maliyyə öhdəlikləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qoyuluşlardır. Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul, ilkin ödəniş müddəti üç aydan az olan banklararası depozitlər daxildir. Verilmə tarixində istifadəsi üç aydan çox müddətə məhdudiyyət qoyulmuş vəsaitlər maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarda pul vəsaitləri və onların ekvivalentlərinə aid edilmir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə nağd pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin nağd pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir, və (ii) MZƏD kateqoriyasında qiymətləndirilmir.

**Müştərilərə verilmiş kreditlər və avanslar**

Müştərilərə verilmiş kreditlər və avanslar müştərinin kreditini almaq və ya müştəriyə kredit vermək məqsədilə Cəmiyyət tərəfindən müştərilərə avans şəklində nağd pul verildiyi zaman uçota alınır. Biznes model və pul axınlarının xüsusiyyətini nəzərə alaraq, Cəmiyyət müştərilərə verilmiş kreditləri və avansları amortizasiya olunmuş dəyərdə təsnifləşdirir. Dəyərsizləşmə üzrə ehtiyatlar gözlənilən kredit zərərləri üzrə proqnoz modellərə əsasən müəyyən edilir. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsində istifadə edilən ilkin məlumatlar, fərziyyələr və hesablama üsulları haqqında məlumat, eləcə də Cəmiyyət tərəfindən proqnoz məlumatlarının gözlənilən kredit zərərləri modellərinə daxil edilməsi qaydası 26 saylı qeyddə göstərilir.

**Cəmiyyətin mülkiyyətinə keçmiş girov, satılanadək saxlanılan aktivlər**

Cəmiyyətin mülkiyyətinə keçmiş girov vaxtı keçmiş kreditlərlə bağlı Cəmiyyət tərəfindən əldə edilmiş maliyyə və qeyri-maliyyə aktivlərindən ibarətdir. Bu aktivlər əldə edildiyi zaman ilkin olaraq ədalətli dəyərdə tanınır və aktivlərin növündən və Cəmiyyətin həmin aktivləri istifadə etmək niyyətindən asılı olaraq əsas vəsaitlər, digər maliyyə aktivləri, investisiya mülkiyyəti və sair aktivlərin tərkibində mal-material ehtiyatlarına daxil edilir və sonradan belə aktivlər üzrə uçot siyasətlərinə uyğun olaraq yenidən qiymətləndirilir və uçota alınır.

**Əmlak icarəsinin təsnifatı**

Maliyyə icarəsi (lizinq) razılaşmalarının müəyyən edilməsi və ya lizinqin başlanğıc tarixində olan razılaşmaya və ya aktivlə bağlı razılaşmaya dair istifadə hüququna əsaslanır.

Əməliyyat icarəsi (kirayə) aktiv kimi tanınmır və xidmət müqaviləsi razılaşmasına əsaslanır.

Cəmiyyət ofis məqsədləri üçün daşınmaz əmlak icarəsi müqavilələri bağlamışdır. Cəmiyyət kommersiya əmlakının iqtisadi ömrünün əsas hissəsini təşkil etməyən icarə müddəti və razılaşdırılmış aylıq sabit icarə ödənişlərinin cari dəyəri kimi razılaşmaların şərtlərinin qiymətləndirilməsi əsasında müəyyən etmişdir. Kommersiya əmlakının ədalətli dəyərinin, bu əmlakın mülkiyyəti ilə əlaqədar bütün riskləri və mükafatları, həmçinin amortizasiya qaydalarını və cari istismar xərclərini icarəyə verən özündə saxlamışdır.

Cəmiyyət tərəfindən müqavilələ əməliyyat icarəsi kimi uçota alınmışdır.

**Əmlak və avadanlıqlar, qeyri-maddi aktivlər**

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər yığılmış köhnəlmə və lazım olduqda, dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aşağıda göstərilən dəyərlə uçota alınır.

*Aktivin ilkin dəyəri onun alış dəyəri və ya tikinti xərcləri, bu aktivin istismara verilməsi ilə birbaşa bağlı olan* xərclər, onun silinməsi öhdəliyi (əgər varsa) üzrə ilkin təxminlər və bütün şərtlərə cavab verən aktivlər üçün borc öhdəlikləri üzrə xərclərdən ibarətdir. Maliyyə lizinqi müqaviləsinə əsasən əldə edilmiş aktivlər də əmlak, tikili və avadanlıqlara daxildir.

**Amortizasiya**

Əmlak və avadanlıqların amortizasiyası düz-xətt metodundan istifadə etməklə onların ilkin dəyəri və ya yenidən qiymətləndirilmiş məbləğləri, təxmin edilən faydalı istifadə müddəti ərzində qalıq dəyərləri aşağıdakı kimi hesablanır:

| | Faydalı istifadə müddəti |
|---|---|
| Binalar | 40 il |
| Mebel və qurğular | 5il |
| Nəqliyyat vasitələri | 4 il |
| Kompüter və ofis avadanlıqları | 4 il |
| Qeyri-maddi aktivlər | 10 il |

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra, Cəmiyyət tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Cəmiyyət aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfra bərabər olur. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

Aktiv və öhdəliklərdən ibarət uzunmüddətli aktivlər və ya xaric edilmə qruplarının, davamlı istifadə yolu ilə yox, ilk növbədə satış yolu ilə bərpa ediləcəyi gözlənilir və satış üçün saxlanılmış formada təsnif edilir. Satış üçün saxlanılmış kimi təsnif edilməzdən dərhal əvvəl, xaric edilmə qrupunun aktivləri və ya komponentləri Cəmiyyətin uçot siyasətinə uyğun olaraq yenidən ölçülür. Bundan sonra, ümumiyyətlə, aktivlər və ya xaric edilən qrup onların balans və satış dəyərindən çıxılmaqla ədalətli dəyərindən ən aşağı olanı ilə ölçülür. Aktiv, satış üçün saxlanılmış kimi təsnif edildikdə və ya satış üçün saxlanılan aktivlər qrupuna daxil edildikdən sonra heç bir əlavə amortizasiya qeydə alınmır.

**Digər banklara ödəniləcək vəsaitlər**

Digər banklara ödəniləcək məbləğ qarşı tərəfdəki banklar tərəfindən Cəmiyyətə pul və ya digər aktivlər verildikdə uçota alınır. Qeyri-derivativ öhdəlik amortizasiya olunmuş maya dəyərində qeydə alınır. Cəmiyyət öz borcunu alırsa, o, balans hesabatından silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş məbləğ arasındakı fərq borcun silinməsindən yaranan gəlir və ya zərərə daxil edilir.

**Müddətli borc öhdəlikləri**

Müddətli borc öhdəliklərinə rezident və qeyri-rezident banklardan, eləcə də digər maliyyə institutlarından müəyyən edilmiş ödəmə müddətləri və sabit faiz dərəcəsi ilə cəlb edilmiş kreditlər daxildir. Müddətli borc öhdəlikləri ilkin tanınmadan sonra amortizasiya olunmuş dəyərdə qeydə alınır.

**Mənfəət vergisi**

Hazırkı maliyyə hesabatlarında əks etdirilən mənfəət vergisi Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə sair məcmu gəlirlərdə qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlirlərdə qeydə alınır.

Cari mənfəət vergisi cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları, qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri müvəqqəti fərqlərin geri qaytarılması, kifayət qədər vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

**Qeyri-müəyyən vergi mövqeləri**

Cəmiyyətin qeyri-müəyyən vergi mövqeləri rəhbərlik tərəfindən hər bir hesabat dövrünün sonunda yenidən qiymətləndirilir. Rəhbərlik Cəmiyyətin vergi mövqeyinə vergi orqanları tərəfindən etiraz edildiyi halda, əlavə vergi öhdəliklərinin yaranmasını ehtimal etdikdə, vergi öhdəlikləri nəzərə alınmır. Bu cür qiymətləndirmə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi qanunvericiliyinin təfsirinə və bu məsələlərə dair hər hansı məhkəmə və ya digər qurumların məlum qərarlarına əsasən aparılır. Mənfəət vergisi istisna olmaqla, cərimələr, penyalar və vergilər üzrə öhdəliklər hesabat dövrünün sonunda öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan xərclərə dair rəhbərliyin ən yaxşı təxminləri əsasında uçota alınır.

**Gəlir və xərclərin uçotu**

Faiz gəlirləri və xərcləri effektiv faiz metodundan istifadə etməklə, hesablama metodu vasitəsilə bütün borc sənədləri üzrə mənfəət və ya zərərdə qeydə alınır. Bu üsul, faiz gəlirləri və ya xərclərinin bir hissəsi kimi, müqavilə tərəfi arasında ödənilən və ya alınan effektiv faiz dərəcəsinin, əməliyyat xərclərinin və bütün digər mükafatların və ya endirimlərin tərkib hissəsi olan bütün haqları təxirə salır. Effektiv faiz dərəcəsinin ayrılmaz hissəsi olan haqlara maliyyə aktivinin yaradılması və ya əldə edilməsi, və maliyyə öhdəliyinin

emissiyası ilə bağlı Cəmiyyət tərəfindən alınan və ya ödənilən ilkin ödənişlər, məsələn, kredit qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun qiymətləndirilməsi və uçotu, əməliyyat sənədlərinin işlənməsində olan şərtlərin müzakirəsi üçün haqlar daxildir.

Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Cəmiyyət tərəfindən alınmış komissiya haqları, Cəmiyyətin xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Cəmiyyət kreditlərin verilməsi üzrə öhdəlikləri MZƏD kateqoriyasına aid olunan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

Faiz gəliri, (i) dəyərsizləşmiş maliyyə aktivləri (3-cü mərhələ) istisna olmaqla, maliyyə aktivlərinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsinin tətbiqi yolu ilə hesablanır. Amortizasiya olunmuş maya dəyəri və gözlənilən kredit zərəri ehtiyatı çıxılmaqla, (ii) alınmış və ya dəyərsizləşmiş kreditdən yaranmış maliyyə aktivləri üçün ilkin kreditə uyğunlaşdırılmış effektiv faiz dərəcəsi amortizasiya olunmuş maya dəyərinə tətbiq edilir.

**Haqq və komissiya gəlirləri**

Haqq və komissiya gəlirləri müştərinin Cəmiyyət tərəfindən göstərilən xidmətlərin faydasını eyni anda qəbul və istifadə etdiyi müəyyən dövr ərzində düz xətt metodu ilə tanınır. Belə gəlirlərə zəmanət məktubları üzrə haqq və komissiyalar daxildir. Digər haqq və komissiya gəlirləri Cəmiyyət öz icra öhdəliyini yerinə yetirdiyi anda, adətən müvafiq əməliyyatı həyata keçirdikdən sonra tanınır. Alınmış və ya alınacaq haqq və komissiya məbləği fərqli icra öhdəlikləri kimi müəyyən edilmiş xidmətlər üzrə əməliyyat qiymətini əks etdirir.

**Xarici valyutanın çevrilməsi**

Cəmiyyətin əməliyyat valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər Mərkəzi Bankın müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən Cəmiyyətin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə Cəmiyyətin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər il üzrə mənfəət və ya zərərdə (məzənnə fərqi üzrə zərər çıxılmaqla gəlir kimi) tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o cümlədən səhm investisiyaları ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə əməliyyat valyutasına çevrilir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyərin dəyişməsindən yaranan gəlir və ya zərərin bir hissəsi kimi əks etdirilir.

31 dekabr 2022-ci il tarixinə ABŞ dolları ilə ifadə olunmuş xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN (2021: 1 ABŞ dolları = 1.7000 AZN).

**Əvəzləşdirmə**

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

**İşçi heyəti ilə bağlı xərclər və müvafiq ayırmalar**

Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır. Cəmiyyətin yerli qanunvericiliklə müəyyən edilmiş ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

**Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları**

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərdə qeydə alınır.

**Müştərilərə verilmiş kreditlər və avanslar**

Müştərilərə verilmiş kreditlər və avanslar amortizasiya olunmuş dəyərlə qeydə alınmış və dəyərsizləşmə üzrə zərərlər maliyyə aktivinin ilkin tanınmasından sonra baş vermiş bir və ya bir neçə hadisə ("zərər hadisəsi") nəticəsində yarandıqda və bu zərər hadisəsi maliyyə aktivi və ya maliyyə aktivləri qrupu üzrə daxil olacaq pul axınlarının məbləğinə və vaxtına etibarlı şəkildə təxmin edilə bilən təsir göstərdikdə mənfəət və ya zərərdə tanınmışdır. Cəmiyyət əhəmiyyətli olub-olmamasından asılı olmayaraq, fərdi şəkildə qiymətləndirilən maliyyə aktivinin dəyərsizləşməsinə dair obyektiv sübutun olmadığı qənaətinə gəldikdə, həmin aktivi analoji kredit riski xüsusiyyətlərinə malik olan maliyyə aktivləri qrupuna daxil etmiş və onların dəyərsizləşməsini məcmu şəkildə təhlil etmişdir.

Maliyyə aktivinin dəyərsizləşməsini müəyyən edərkən Cəmiyyətin nəzərə aldığı əsas amillər həmin aktivin vaxtı keçməsi statusu və hər hansı girov təminatının realizasiya oluna bilməsidir. Kredit üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- hər-hansı ödənişin gecikdirilməsi və bu zaman gecikdirilmiş ödənişin hesablaşma sistemlərindəki gecikmə ilə izah edilə bilməməsi;
- borcalanın əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Cəmiyyətin borcalan haqqında maliyyə məlumatları ilə təsdiqlənməsi;
- borcalanın müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi;
- borcalana təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi; və ya
- girovun dəyərinin bazar şərtlərinin pisləşməsi nəticəsində əhəmiyyətli dərəcədə aşağı düşməsi.

Kredit zərərinin məcmu şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri kredit riski üzrə oxşar xüsusiyyətlərə görə qruplaşdırılmışdır. Həmin xüsusiyyətlər qiymətləndirilən aktivlərin müqavilə şərtlərinə əsasən borcalanların ödəmə qabiliyyətini təsdiqləmişdir ki, bu da belə aktivlərlə bağlı gələcək pul vəsaitlərinin təxmin edilməsi üçün uyğun olmuşdur.

Kredit zərəri məcmu şəkildə qiymətləndirilən maliyyə aktivləri qrupundakı pul vəsaitlərinin gələcək hərəkəti, həmin aktivlərlə bağlı müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, keçmişdə baş vermiş zərər halları nəticəsində yaranacaq vaxtı keçmiş borcların həcminə dair rəhbərlikdə mövcud olan statistikaya və vaxtı keçmiş borcların geri qaytarılması nailiyyətinə əsasən müəyyən edilmişdir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş hadisələrin təsirini aradan qaldırmaq məqsədilə, keçmiş illərin statistikası müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənmişdir.

Amortizasiya edilmiş dəyərlə əks etdirilən dəyərsizləşmiş maliyyə aktivi ilə bağlı şərtlərə yenidən baxıldıqda və ya bu şərtlər borcalanın və ya emitentin maliyyə vəziyyətindəki çətinliklərə görə dəyişdikdə, dəyərsizləşmə şərtlərin dəyişməsindən əvvəlki effektiv faiz dərəcəsinə əsasən ölçülmüşdür. Şərtlərinə yenidən baxılmış aktivin tanınmasının dayandırılması zamanı risk və faydalar əhəmiyyətli dərəcədə

dəyişdikdə, yeni aktiv ədalətli dəyərlə tanınmışdır. Bu, adətən ilkin və yeni gözlənilən nağd pul axınlarının cari dəyərləri arasındakı fərq əhəmiyyətli olduqda müşahidə olunmuşdur.

Aktivin balans dəyərini effektiv faiz dərəcəsilə diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinə (kreditlər üzrə baş verməmiş gələcək zərərlər istisna olmaqla) bərabərləşdirmək üçün aktivlər üçün dəyərsizləşmə üzrə zərərlər ehtiyat hesablarında qeydə alınır. Girov qoyulmuş maliyyə aktivi üzrə təxmin edilən gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması girovun alınması və satılması ilə bağlı məsrəflər çıxılmaqla, girov nəticəsində yarana bilən (girovun olub-olmaması ehtimal edildikdə) pul vəsaitlərinin hərəkətini əks etdirir.

Kredit üzrə zərərin məbləği sonrakı dövrdə baş vermiş hadisəyə görə azaldıqda və həmin azalma obyektiv olaraq zərərin qeydə alınmasından sonra baş vermiş hadisəyə (məsələn, borcalanın kredit reytinqinin artması kimi) aid edildikdə əvvəl qeydə alınmış dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərər hesabına yaradılmış ehtiyata düzəliş etməklə qaytarılmışdır.

Aktivlər qaytarıla bilmədikdə, onlar aktivin və ya onun hissəsinin bərpa olunması üçün bütün zəruri prosedurların tamamlanmasından və zərərin məbləğinin müəyyən edilməsindən sonra müvafiq zərər ehtiyatından silinmişdir. Əvvəllər silinmiş məbləğlərin qaytarılması il üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə zərərin azaldılması kimi uçota alınmışdır.

## 4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Cəmiyyət, növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir.

Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və ehtimallar irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

***Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi.*** Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi müvafiq metodologiya, modellər və ilkin məlumatlardan istifadə etməklə aparılan əhəmiyyətli hesablamadır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi metodologiyasına dair ətraflı məlumat "Maliyyə risklərinin idarə edilməsi" adlı 21 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlər kredit zərərləri üzrə ehtiyata əhəmiyyətli dərəcədə təsir göstərir: defolt, kredit riskinin əhəmiyyətli dərəcədə artması (SICR), defolt ehtimalı (PD), defolta məruz qalan dəyər (EAD) və defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (LGD). Cəmiyyət gözlənilən kredit zərərləri üzrə hesablamalar və faktiki kredit zərərləri arasında fərqlərin azaldılması üçün modelləri və bu modellər üzrə məlumatları müntəzəm olaraq təhlil edir və təsdiqləyir.

Cəmiyyət qiymətləndirmə üçün dəstəkləyici proqnoz məlumatlardan, əsasən də özünün proqnoz makroiqtisadi modelinin nəticələrindən istifadə etmişdir.

***Vergi qanunvericiliyi.*** Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır.

## 5. Yeni və yenidən işlənmiş standarrtların və onlara dair şərhlərin tətbiqi

Maliyyə hesabatlarının hazırlanması zamanı qəbul edilmiş uçot siyasəti, 1 yanvar 2022-ci il tarixindən qüvvəyə minmiş yeni standartların qəbulu istisna olmaqla, 31 dekabr 2021-ci il tarixində başa çatan il üçün

Cəmiyyətin illik maliyyə hesabatlarının hazırlanması zamanı tətbiq olunan siyasətlərə uyğundur. Cəmiyyət buraxılmış, lakin hələ qüvvəyə minməmiş hər hansı standart, şərh və ya düzəlişi erkən qəbul etməyib.

Bir neçə düzəliş ilk dəfə 2022-ci ildə tətbiq edilir, lakin Cəmiyyətin maliyyə hesabatlarına heç bir təsiri yoxdur.

**Dərc olunmuş, lakin hazırda qüvvəyə minməmiş standartlar və şərhlər**

Cəmiyyət bu standartlar və düzəlişlər qüvvəyə mindikdə (tətbiq edildikdə) olanları qəbul etmək niyyətindədir.

**Yüklü müqavilələr – Müqavilənin yerinə yetirilməsi xərcləri – MUBS 37-yə düzəlişlər.** Yüklü müqavilə müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı qaçınılmaz xərclərin (yəni, Cəmiyyətin müqaviləyə malik olması səbəbindən qaça bilməyəcəyi xərclər) ona əsasən əldə edilməsi gözlənilən iqtisadi faydaları üstələdiyi bir müqavilədir. Düzəlişlər müəyyən edir ki, müqavilənin yüklü və ya zərərli olub-olmadığını qiymətləndirərkən, müəssisə mal və ya xidmətlərin təmin edilməsi üçün müqavilə ilə birbaşa əlaqəli olan məsrəflərə həm əlavə məsrəfləri (məsələn, birbaşa əmək və material xərcləri) və həm də əlavə xərcləri daxil etməlidir. birbaşa müqavilə fəaliyyəti ilə bağlı xərclərin bölüşdürülməsi (məsələn, müqavilənin yerinə yetirilməsi üçün istifadə olunan avadanlığın amortizasiyası, həmçinin müqavilənin idarə edilməsi və nəzarəti xərcləri). Ümumi və inzibati məsrəflər birbaşa müqaviləyə aid edilmir və onlar müqaviləyə əsasən qarşı tərəfə açıq şəkildə ödənilmədiyi hallar istisna olmaqla, xaric edilir. Cəmiyyət hesabat dövrünün əvvəlində bütün öhdəliklərini yerinə yetirmədiyi müqavilələrə düzəlişlər tətbiq etmişdir.

Dəyişikliklərin tətbiqindən əvvəl Cəmiyyət heç bir müqaviləni yüklü hesab etməmişdi, çünki müqavilələr üzrə qaçınılmaz xərclər, onların yerinə yetirilməsi ilə bağlı xərclər, yalnız birbaşa müqavilələrlə bağlı əlavə xərcləri əhatə edirdi. Dəyişikliklər nəticəsində, müqavilələrin yerinə yetirilməsi ilə bağlı xərclərin müəyyən edilməsinə Cəmiyyət tərəfindən birbaşa əlaqəli bəzi digər xərclər daxil edilmişdir. Buna görə də, Cəmiyyət müqavilə üzrə öhdəliklərini hələ yerinə yetirmədiyinə görə, Cəmiyyət 30 iyun 2022-ci il tarixinə dəyişməz qalmış Yüklü müqavilə öhdəliyini tanıdı. Keçid müddəalarına uyğun olaraq, Cəmiyyət düzəlişləri ilk dəfə tətbiq etdiyi (ilkin tətbiq olunma tarixi) illik hesabat dövrünün əvvəlində bütün öhdəliklərini hələ yerinə yetirmədiyi müqavilələrə düzəlişləri tətbiq edir. onun müqayisəli məlumatları.

**Konseptual Əsaslara istinad – MHBS 3-ə düzəlişlər.** Düzəlişlər IASB-nin Konseptual Əsasların əvvəlki versiyasına istinadı onun tələblərini əhəmiyyətli dərəcədə dəyişdirmədən 2018-ci ilin martında buraxılmış cari versiyaya istinadla əvəz edir.

Dəyişikliklər BMHS 3 "Müəssisələrin birləşməsi" standartının tanınma prinsipinə istisna əlavə edir ki, öhdəliklər və şərti öhdəliklər üzrə "2-ci gün" potensial mənfəət və ya itkilər probleminin qarşısını almaq üçün "Qiymətlər, Şərti Öhdəliklər və Şərti Aktivlər" adlı 37 №-li MUBS-un əhatə dairəsinə daxil ola bilər. BMHŞK 21 Yığımlar, əgər ayrıca çəkilirsə. İstisna müəssisələrdən hazırkı öhdəliyin alış tarixində mövcud olub-olmadığını müəyyən etmək üçün Konseptual Əsaslar əvəzinə müvafiq olaraq BMS 37 və ya BMHŞK 21-dəki meyarları tətbiq etməyi tələb edir.

Düzəlişlər həmçinin şərti aktivlərin alış tarixində tanınma tələblərinə cavab vermədiyini aydınlaşdırmaq üçün MHBS 3-ə yeni paraqraf əlavə edir.

Dövr ərzində bu düzəlişlər çərçivəsində şərti aktivlər, öhdəliklər və şərti öhdəliklər olmadığından bu düzəlişlər Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərməmişdir.

**Torpaq, tikili və avadanlıqlar: Nəzərdə tutulan istifadədən əvvəl daxilolmalar – 16 №-li MUBS-a düzəlişlər**. Dəyişiklik müəssisələrə torpaq, tikili və avadanlıq obyektinin dəyərindən, həmin aktivin rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün zəruri olan yerə və vəziyyətə gətirilərkən istehsal edilmiş obyektlərin satışından əldə edilən hər hansı gəliri çıxmağı qadağan edir. .

Bunun əvəzinə, müəssisə bu cür əşyaların satışından əldə edilən gəlirləri və həmin maddələrin istehsalı ilə bağlı xərcləri mənfəət və ya zərərdə tanıyır.

Təqdim olunan ən erkən dövrün əvvəlində və ya ondan sonra istifadəyə verilmiş torpaq, tikili və avadanlıqlar tərəfindən istehsal edilmiş belə obyektlərin satışı olmadığı üçün bu düzəlişlər Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərməmişdir.

**MHBS 1 Beynəlxalq Maliyyə Hesabatı Standartlarının İlk Dəfə Tətbiq Edilməsi – İlk dəfə tətbiq edən Törəmə Müəssisə.** Dəyişiklik, əgər konsolidasiya üçün heç bir düzəliş edilməmişsə, əsas müəssisənin MHBS-a keçid tarixinə əsaslanaraq, əsas müəssisənin konsolidasiya edilmiş maliyyə hesabatlarında təqdim olunan məbləğlərdən istifadə etməklə məcmu tərcümə fərqlərini ölçmək üçün MHBS 1-in D16(a) bəndini tətbiq etməyi seçən törəmə müəssisəyə icazə verir. prosedurlar və əsas müəssisənin törəmə müəssisəni əldə etdiyi müəssisələrin birləşməsinin nəticələri. *Bu düzəliş həm də MHBS 1-in D16(a) bəndini tətbiq etməyi* seçən asılı və ya birgə müəssisəyə tətbiq edilir.

Bu düzəlişlər Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərməmişdir, çünki o, ilk dəfə tətbiq etmir.

**MHBS 9 Maliyyə Alətləri – Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması üçün "10 faiz" testində ödənişlər.** Düzəliş yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmamasını qiymətləndirərkən müəssisənin daxil etdiyi haqları aydınlaşdırır. Bu haqlara yalnız borcalan və borc verən arasında ödənilən və ya alınanlar, o cümlədən borcalan və ya borc verən tərəfindən digərinin adından ödənilən və ya alınan haqlar daxildir. 39 №-li MUBS Maliyyə Alətləri: Tanınma və Ölçmə üçün təklif olunan oxşar düzəliş yoxdur.

Dövr ərzində Cəmiyyətin maliyyə alətlərində heç bir dəyişiklik olmadığı üçün bu düzəlişlər Cəmiyyətun maliyyə hesabatlarına təsir göstərməmişdir.

**BMS 41 Kənd təsərrüfatı – Ədalətli dəyərin ölçülməsində vergitutma.** Dəyişiklik 41 №-li MUBS-un 22-ci bəndindəki tələbi aradan qaldırır ki, müəssisələr 41 №-li MUBS-un tətbiqi çərçivəsində aktivlərin *ədalətli dəyərini ölçərkən vergitutma üçün pul vəsaitlərinin hərəkətini istisna edirlər.*

Hesabat tarixinə 41 №-li MUBS-un tətbiqi üzrə aktivləri olmadığı üçün bu düzəlişlər Cəmiyyətin maliyyə hesabatlarına təsir göstərməmişdir.

Rəhbərlik yeni standartların həyata keçirilməsi, maliyyə hesabatlarına təsir göstərməsi və Cəmiyyət tərəfindən qəbulu müddətini də nəzərə alır.

Yuxarıda başqa cür nəzərdə tutulmadığı hallarda, yeni standartlar və şərhlərin Cəmiyyətın maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

## 6. Xalis faiz gəlirləri /(xərcləri)

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| **Faiz gəlirləri aşağıdakılardan ibarətdir:** | | |
| Bank depozitlərindən faiz gəlirləri | 7,017 | 114,240 |
| İstehlak kreditləri üzrə faiz gəlirləri | 932,002 | 962,198 |
| Lizinq faiz gəlirləri | 41,262 | 34,591 |
| Vaxtı keçmiş kreditlər üzrə faiz gəlirləri | 128,956 | 73,750 |
| **Cəmi faiz gəlirləri** | **1,109,237** | **1,184,779** |

| | | |
|---|---|---|
| **Faiz xərcləri aşağıdakılardan ibarətdir:** | | |
| Maliyyə institutları üzrə faiz xərcləri | (24,099) | (144,104) |
| Əlaqəli tərəflər üzrə faiz xərcləri | (53,181) | (104,253) |
| **Cəmi faiz xərcləri** | **(77,280)** | **(248,357)** |
| **Faiz gətirən aktivlər üzrə ehtimal edilən zərər üçün ehtiyatlar bərpa olunmamışdan/(təmin olunmamışdan) əvvəl xalis faiz gəliri** | **1,031,957** | **936,422** |

## 7. Xalis komissiya və xidmət gəlirləri/ (xərcləri)

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Haqq və komissiya gəlirləri | 172,844 | 1,077 |
| Rabitə və komissiya xərcləri | (18,990) | (31,424) |
| Müxbir hesablar üzrə komissiya xərci | (18,525) | (43,244) |
| **Cəmi haqq və komissiya gəlirləri /(xərcləri)** | **125,329** | **(73,591)** |

## 8. İşçi heyəti üzrə xərclər

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Hesablanmış əmək haqqı və mükafatlar | (955,567) | (1,004,437) |
| Social sığrta haqqları | (155,722) | (152,133) |
| İşçizlik sığortası haqqları | (17,124) | (9,012) |
| İcbari tibbi sığorta haqqları | (4,774) | (5,022) |
| **Cəmi işçi heyəti üzrə hesablaşmalar, xalis** | **(1,133,187)** | **(1,170,604)** |

## 9. Amortızasıya xərcləri

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Binalar və tikililər üzrə | (48,744) | (44,036) |
| İT və hesablama texnikası üzrə | (6,590) | (6,625) |
| Nəqliyyat vasitələri üzrə | (56,094) | (52,178) |
| Mebel və ofis avadanlığı üzrə | (13,381) | (5,318) |
| İcarəyə görürülmüş aktivlərin təmir xərci üzrə | (32,007) | (44,148) |
| Qeyri-maddi aktivlər üzrə | (25,440) | (19,230) |
| **Cəmi amortizasiya xərcləri, xalis** | **(182,256)** | **(171,435)** |

## 10. Digər gəlirlər/(xərclər)

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Valyuta əməliyyatları üzrə xalis məzənnə fərqləri | (190) | (136) |
| Əmlak və avadanlığın satışından gəlirlər/(zəzərlər) | 61,027 | (21,751) |
| Əmlak və avadanlığın silinməsindən gəlirlər/(zəzərlər) | (293,678) | (46,802) |
| Cərimələr üzrə gəlirlər/(zərərlər) | 84,011 | 24,606 |
| Borcların silinməsindən gəlirlər/(zərərlər) | (349,668) | (123,284) |
| Digər gəlirlər/(xərclər) | 217,279 | 24,039 |
| **Cəmi digər gəlirlər/(xərclər)** | **(281,219)** | **(143,328)** |

## 11. Ümumi inzibati xərclər

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Kirayə xərcləri | (144,284) | (122,946) |
| Rabitə xərcləri | (44,685) | (98,660) |
| Ofis ləvazimatı və təsərrüfat xərcləri | (22,604) | (29,638) |
| Kommunal xərclər | (20,342) | (23,116) |
| Proqram təminatı xərcləri | (29,089) | (48,079) |
| Sığorta xərcləri | (8,169) | (12,566) |
| Reklam və marketinq xərcləri | (13,034) | (1,731) |
| Peşəkar xidmətlər | (136,026) | (677,956) |
| İşçi xərcləri | (1,914) | (8,419) |
| Ezamiyyət xərcləri | (106,901) | (160,349) |
| Avtomobillərin saxlanması və nəqliyyat xərcləri | (52,803) | (54,345) |
| Təmir və servis xərcləri | (37,608) | (32,233) |
| Digər xidmətlər | (19,302) | (42,425) |
| Digər xərclər | (9,822) | (32,053) |
| Vergi xərcləri | (25,112) | (63,435) |
| Nümayəndəlik və əyləncə xərcləri | (43,495) | (34,700) |
| **Cəmi inzibati və əməliyyat xərcləri** | **(715,190)** | **(1,442,651)** |

## 12. Pul vəsaitləri və onların ekvivalentləri

Pul və pul vəsaitləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| Milli valyutada nağd pul | 9,998 | 8,114 |
| Milli valyutada müxbir bank hesabı | 104,073 | 520,847 |
| Xarici valyutada müxbir bank hesabı | 391 | 16,582 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **114,462** | **545,543** |

## 13. Maliyyə institutlarına verilmiş depozitlər

Banklara qoyulmuş depozitlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| Access Bank QSC-də depozit hesabı | 446,661 | 1,184 |
| **Cəmi banklara qoyulmuş depositlər** | **446,661** | **545,543** |

Cəmiyyət 6 Aprel 2020-ci il tarixində "Access Bank" QSC-də tələbli "əlverişli əmanət" depozit hesabı açmışdır. 31 dekabr 2022-ci il tarixinə qoyulmuş depozitin qalığı 446,661 manat məbləğindən (31 dekabr 2021-ci il : 1,184 manat) ibarət olmuşdur. Depozit illik 7% dərəcəsi ilə qoyulmuşdur.

## 14. Müştərilərə verilmiş kreditlər

Müştərilərə verilmiş kreditlərin qalıqları aşağıdakı kimidir:

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| Qısamüddətli kreditlər | 338,251 | 98,597 |
| Uzunmüddətli kreditlr | 4,620,645 | 4.156,696 |
| Vaxtı keçmiş kreditlər | 616,724 | 1,084,339 |
| Lizinq | 140,303 | 67,368 |
| **Müştərilərə verilmiş kreditlər** | **5,715,923** | **5,407,000** |
| Qısamüddətli kreditlər – faizlər | 38,424 | 19,648 |
| Uzunmüddətli kreditlər – faizlər | 173,754 | 155,427 |
| **Hesablanmış faizlər** | **212,178** | **175,075** |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **5,928,101** | **5,582,075** |
| Gözlənilən kredit zərəri (GKZ) üzrə ehtiyat | (612,396) | (1,258,005) |
| **Müştərilərə verilmiş kreditlər və avanslar** | **5,315,705** | **4,324,070** |

31 dekabr 2022-ci və 31 dekabr 2021-ci il tarixlərinə amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlərin ümumi balans dəyəri və gözlənilən kredit zərərləri üzrə ehtiyatların kateqoriyalar üzrə təhlili aşağıdakı kimidir:

| **Müştərilərə verilmiş kreditlər** | **Ümumi balans dəyəri** | **GKZ üzrə ehtiyat** | **31/12/2022 tarixə balans dəyəri** |
|---|---|---|---|
| İstehlak kreditləri | 5,777,809 | (602,734) | 5,175,075 |
| Lizinq | 150,292 | (9,662) | 140,630 |
| **Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər** | **5,928,101** | **(612,398)** | **5,315,705** |

| Müştərilərə verilmiş kreditlər | Ümumi balans dəyəri | GKZ üzrə ehtiyat | 31/12/2021 tarixə balans dəyəri |
|---|---|---|---|
| İstehlak kreditləri | 5,475,907 | (1,253,393) | 4,222,514 |
| Lizinq | 106,168 | (4,612) | 101,556 |
| | | | |
| **Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər** | **5,582,075** | **(1,258,005)** | **4,324,070** |

Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatın hərəkəti aşağıdakı kimidir:

| **Ümumi balans dəyəri – 31 dekabr 2022-ci il** | | | | |
|---|---|---|---|---|
| | **1-ci mərhələ (12 aylıq GKZ)** | **2-ci mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)** | **3-cü mərhələ (dəyərsizləşm iş aktivlər üzrə bütöv müddət üçün GKZ)** | **Cəmi** |
| Müştərilərə verilmiş kreditlər (ümumi) | 5,240,775 | 108,290 | 579,036 | **5,928,101** |
| Çıxlsın: Gözlənilən kredit zərərləri üzrə ehtiyat | (10,253) | (29,089) | (573,054) | **(612,396)** |
| **Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər və avanslar** | **5,230,522** | **79,201** | **5,982** | **5,315,705** |

| **Ümumi balans dəyəri – 31 dekabr 2021-ci il** | | | | |
|---|---|---|---|---|
| | **1-ci mərhələ (12 aylıq GKZ)** | **2-ci mərhələ (KRƏA zamanı bütöv müddət üçün GKZ)** | **3-cü mərhələ (dəyərsizləşm iş aktivlər üzrə bütöv müddət üçün GKZ)** | **Cəmi** |
| Müştərilərə verilmiş kreditlər (ümumi) | 4,153,592 | 39,215 | 1,389,268 | **5,531,746** |
| Çıxlsın: Gözlənilən kredit zərərləri üzrə ehtiyat | (93,691) | (18,571) | (1,095,743) | **(1,258,005)** |
| **Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər və avanslar** | **4,059,901** | **20,644** | **293,525** | **4,324,070** |

Kredit portfelinin iqtisadi sektorlar üzrə bölgüsü aşağıdakı kimidir:

| | **31 dekabr 2022** | **31 dekabr 2021** |
|---|---|---|
| İstehlak kreditləri | 3,953,936 | 3,180,925 |
| Kənd təsərrüfatı | 791,591 | 1,529,624 |
| Ticarət | 340,390 | 716,465 |
| Nəqliyyat | 167,870 | 82,986 |
| Digər | 674,344 | 72,075 |
| **Cəmi Müştərilərə verilmiş kreditlər, ümumi** | **5,928,101** | **5,582,075** |

Cəmiyyət, kredit riskini minimum səviyyədə saxlamaq məqsədilə Rəhbərlik tərəfindən müəyyən olunmuş qaydada verilmiş kreditlər qarşılığında girov götürür. Tələb olunan girovun məbləği və növü qarşı tərəfin kredit riskinin qiymətləndirilməsindən asılıdır. Girov və qiymətləndirmə parametrlərinin növlərinin qəbuledilməsi ilə bağlı təlimatlar həyata keçirilir və girovun qiymətləndirilməsi müstəqil peşəkar şirkət tərəfindən aparılır.

Əldə olunan girovlar əsasən, daşınar və daşınmaz əmlaklardır.

Müştərilərə verilmiş kreditlər üzrə kredit riskinə dair məlumat üçün "Maliyyə Risklərinin İdarə Edilməsi" Qeydinə istinad edin.

Müştərilərə verilmiş kredit və avansların hər bir sinfi üzrə balans dəyəri təxminən 31 dekabr 2022 və 31 dekabr 2021-cu il tarixlərinə onların ədalətli dəyərinə bərabərdir.

31 dekabr 2022-ci il tarixinə müştərilərə verilmiş kreditlər üzrə təminat haqqında məlumat aşağıdakı kimidir:

| **Girovla təmin edilmiş kreditlər** | **İstehlak kreditləri** | **Lizinq** | **Ümumi kreditlər** |
|---|---|---|---|
| - Zamin | 7,688,912 | 24,800 | 7,713,712 |
| - Daşınar əmlak | 117,285 | 466,829 | 584,114 |
| - Daşınmaz əmlak | 1,434,264 | - | 1,434,264 |
| **Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər** | **9,240,461** | **491,629** | **9,732,090** |

31 dekabr 2021-ci il tarixinə müştərilərə verilmiş kreditlər üzrə təminat haqqında məlumat aşağıdakı kimidir:

| **Girovla təmin edilmiş kreditlər** | **İstehlak kreditləri** | **Lizinq** | **Ümumi kreditlər** |
|---|---|---|---|
| - Zamin | 4,318,962 | 4,612 | 4,323,574 |
| - Daşınar əmlak | 100,850 | 696 | 101,546 |
| - Daşınmaz əmlak | 701,740 | 100,893 | 802,633 |
| **Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər** | **5,121,552** | **106,201** | **5,227,753** |

Kredit portfelinin valyuta vahidləri üzrə bölgüsü aşağıdakı kimidir:

| | **31 dekabr 2022** | **31 dekabr 2021** |
|---|---|---|
| Azərbaycan manatı – AZN | 5,686,908 | 5,148,468 |
| ABŞ dollar – USD | 241,193 | 433,607 |
| **Cəmi Müştərilərə verilmiş kreditlər, ümumi** | **5,928,101** | **5,582,075** |

## 15. Əmlak, tikili və avadanlıq və qeyri-maddi aktivlər

Əmlak və avadanlıqlar aşağıdakılardan ibarətdir:

| | Torpaq və binalar | İT avadanlıqları | Nəqliyyat vasitələri | Mebel və ofis avadanlığı |
|---|---|---|---|---|
| 1 yanvar 2021-ci il tarixinə İkin dəyər | 2,182,256 | 1,118,109 | 552,870 | 586,816 |
| Yığılmış amortizasiya | (1,107,425) | (1,107,965) | (377,874) | (578,309) |
| **31 dekabr 2020-ci il tarixinə qalıq dəyəri** | **1,074,831** | **10,144** | **174,996** | **8,507** |
| Əlavələr | | 6,069 | 2,465 | 3,821 |
| Silinmələr/Satışlar | (447,051) | | (7,976) | (11,832) |
| İl üzrə amortizasiya ayırmaları | (44,036) | (6,625) | (52,178) | (5,318) |
| Ləğv edilmiş amortizasiya | 215,249 | | 7,976 | 11,832 |
| 31 dekabr 2021-cu il tarixinə İkin dəyər | 1,735,205 | 1,124,178 | 547,359 | 578,805 |
| Yığılmış amortizasiya | (936,212) | (1,114,590) | (422,076) | (571795) |
| **31 dekabr 2021-cu il tarixinə qalıq dəyəri** | **798,993** | **9,588** | **125,283** | **7,010** |
| Əlavələr | 75,630 | 21,431 | 66,360 | 622 |
| Silinmələr/Satışlar | (222,499) | (1,836) | (165,174) | (8,590) |
| İl üzrə amortizasiya ayırmaları | (48,744) | (6,590) | (56,095) | (13,380) |
| Ləğv edilmiş amortizasiya | 254,580 | | 155,210 | 7,498 |
| Korreksiya – ilkin dəyər | (836,901) | (1,043,372) | (210,283) | (498,492) |
| Korreksiya- amortizasiya | 353,586 | 1,075,145 | 207,419 | 509,948 |
| 31 dekabr 2022-ci il tarixinə İlkin dəyər | 751,435 | 100,401 | 238,262 | 72,729 |
| Yığılmış amortizasiya | (376,790) | (46,035) | (115,542) | (72,729) |
| **31 dekabr 2022-ci il tarixinə qalıq dəyəri** | **374,645** | **54,366** | **122,720** | - |

Torpaq, tikili və avadanlıqlar, habelə qeyri-maddi aktivlərin real mövcudluğu və mühasibat balans qalıqları arasında qeyri-müəyyənliklər mövcuddur. Cəmiyyətin istifadə etdiyi İT sistemi torpaq, tikili və avadanlıqların, habelə qeyri maddi aktivlərin ilkin dəyər ilə hesablanmış amortizasiya və qiymətdəndüşmə dəyəri analitik uçot məlumatları ilə tam uzlaşmır. Rəhbərlik yaxın zamanlarda mühasibat uçotunda istifadə edilən İT sisteminin yeni və daha mükəmməl bir mühasibat sistemi ilə əvəzlənəcəyini planlaşdırır.

## 16. Satılanadək saxlanılan aktivlər

Satılanadək saxlanılan aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| Ödənilməmiş borclar müqabilində götürülən daşınar əmlak | 22,014 | 55,729 |
| Ödənilməmiş borclar müqabilində götürülən daşınmaz əmlak | 1,164,837 | 1,423,400 |
| **Cəmi satılanadək saxlanılan uzunmüddətli aktivlər** | **1,186,851** | **1,479,129** |

31 dekabr 2022-ci il tarixinə satılanadək saxlanılan aktivlərə qeyri-işlək kreditlərin girovu kimi götürülmüş gecikdirilmiş kreditlər üzrə alınmış girovlara daşınar və daşınmaz əmlak daxildir. Rəhbərlik inanır ki, bu aktivlər bir il müddətində satılacaq.

## 17. Digər aktivlər

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| **Maliyyə aktivləri** | | |
| Digər alınacaq vəsaitlər | 281,849 | 61,903 |
| **Qeyri-maliyyə aktivləri** | | |
| Dövlət büdcəsindən alacaqlar | - | 92 |
| Qabaqcadan ödənilmiş xərclər | 134,163 | 109,069 |
| **Cəmi digər aktivlər** | **416,012** | **171,064** |

## 18. Digər öhdəliklər

| | 31 dekabr 2022 | 31 dekabr 2021 |
|---|---|---|
| ***Maliyyə öhdəlikləri*** | | |
| Digər ödəniləcək vəsaitlər | 314,184 | 408,813 |
| ***Qeyri-maliyyə öhdəlikləri*** | | |
| Mənfəət vergisindən başqa ödəniləcək sair vergilər | 20,075 | 20,922 |
| Digər öhdəliklər | 33,966 | - |
| **Cəmi digər öhdəliklər** | **368,225** | **429,735** |

## 19. Borc öhdəlikləri

Banklara və digər maliyyə qurumlarına ödəniləcək borc vəsaitlərinə aşağıdakılar daxildir:

| | Qeyd | Borc məbləği | Faiz borcu | 31.12.2022 tarixə ümumi borc |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası Mərkəzi Bankından borc alınmış uzunmüddətli vəsaitlər | 19.1 | 1,207,362 | 40 | 1,207.402 |
| Əlaqəli tərəflərdən xarici valyutada alınmış alınmış uzunmüddətli borclar – AqroMostFinans | 19.2 | 850,000 | 2,465 | 852,465 |
| Qiymmətli kağızların – istiqrazların emissiyası – AzFinance | 19.3 | 960,940 | 8,626 | 969,566 |
| Əlaqəli tərəflərdən alınmış alınmış qısamüddətli borclar – Fiziki şəxs | 19.4 | 510,000 | 2,182 | 512,182 |
| **Cəmi borc öhdəlikləri** | | **3,528,302** | **13,313** | **3,541,615** |

| | Qeyd | Borc məbləği | Faiz borcu | 31.12.2021 tarixə ümumi borc |
|---|---|---|---|---|
| Azərbaycan Respublikası Mərkəzi Bankından borc alınmış uzunmüddətli vəsaitlər | 19.1 | 1,553,364 | 147,450 | 1,700,814 |
| Əlaqəli tərəflərdən xarici valyutada alınmış alınmış uzunmüddətli borclar – AqroMostFinans | 19.2 | 850,000 | 13,996 | 863,996 |
| Qiymmətli kağızların – istiqrazların emissiyası – AzFinance | 19.3 | | | |
| Əlaqəli tərəflərdən alınmış alınmış qısamüddətli borclar – Fiziki şəxs | 19.4 | | | |
| **Cəmi borc öhdəlikləri** | | **1,403,364** | **161,446** | **2,564,810** |

19.1. Azərbaycan Respublikasının Prezidentinin 28 fevral 2019-cu il tarixli fərmanına əsasən, 18 Dekabr 2021-ci -cu ildə, Azərbaycan Mərkəzi Bankı Cəmiyyətə 0.1 faiz dərəcəsi və beş il müddətinə dövlət zəmanəti ilə Fərmanın qüvvəyə mindiyi günədək 360 gündən artıq gecikmiş və 1 yanvar 2012-ci il tarixindən Fərmanın qüvvəyə mindiyi tarixədək bağlanmış kredit müqavilələri əsasında 10,000 ABŞ dolları və ya 17,000 manat məbləğədək fiziki şəxslərə verilmiş kreditlərin restrukturizasiyası məqsədilə kredit vermişdir. 31 drkabr 2022-ci il tarixə Cəmiyyətin əsas borc qalığı 1,207,362 manat (2021: 1,553,364 manat), hesablanmış faiz borcu isə 40 manat (2021: 147,450 manat) təşkil etmişdir.

19.2. Cəmiyyət ilə "Aqromostfinance" MMC arasında 13 iyun 2018-ci il tarixində maliyyə ehtiyaclarının qarşılanması üçün 1,700,000 ABŞ dolları (2,890,000 AZN) dəyərində, illik faiz dərəcəsi 6% olmaqla, son ödəmə müddəti 20 yanvar 2021-ci il tarixində başa çatan kredit müqaviləsi imzalanmışdır. Kreditin müddəti 14 yanvar 2019-cu il tarixində müqaviləyə edilmiş əlavə ilə 15 may 2022-ci il tarixinə qədər uzadılmışdır. 01 dekabr 2021-ci il tarixində müqaviləyə edilmiş əlavə ilə 31 dekabr 2024-cü il tarixinə qədər uzadılmışdır.

Qeyd olunan kreditlə bağlı Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə əsas borc qalığı 500,000 ABŞ dolları və ya 850,000 manat, hesablanmış faiz borcu 1,450 ABŞ dolları və ya 2,465 manat təşkil etmişdir (2021: əsas borc qalığı 500,000 ABŞ dolları və ya 850,000 manat, hesablanmış faiz borcu 8,233 və ya 13,996 manat).

19.3. Cəmiyyətin Ümumi yığıncağının 28 iyun 2022-ci il tarixli qərarına əsasən hər birinin nominal dəyəri 100 manat olan 10,000 ədəd sənədsiz adlı, faizli, təmin edilmiş istiqrazların baza emissiya prospekti Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təsdiq edilmişdir. İstiqrazların birinci tranşı 5,000 ədəd olmaqla 07 sentyabr 2022-ci il tarixində AZ2002009168 qiymətli kağızların qeydiyyat nömrəsi ilə dövlət reestrinə daxil edilmişdir. İstiqrazların ikinci tranşı 5,000 ədəd olmaqla 20 oktyabr 2022-ci il tarixində AZ2002009167 qiymətli kağızların qeydiyyat nömrəsi ilə dövlət reestrinə daxil edilmişdir. İstiqrazlar "AzFinance İnvestisiya Şirkəti" QSC vasitəçiliyi ilə "Bakı Fond Birlası" QSC-də yerləşdirilmişdir. 31 dekabr 2022-ci il tarixinə istiqrazlar üzrə borc məbləği 960,940 manat, faiz və komissiya borcu isə 8,626 manat təşkil etmişdir.

19.4. Cəmiyyət ilə Azərbaycan Respublikasının vətəndaşı Əsədov Məcid Fərhad oğlu ilə 08 dekabr 2022-ci il tarixdə maliyyə ehtiyaclarının qarşılanması üçün 300,000 ABŞ dolları ekvivalentində 510,000 manat dəyərində, illik faiz dərəcəsi 7% olmaqla, son ödəmə müddəti 08 mart 2023-cü il tarixində başa çatan kredit müqaviləsi imzalanmışdır. Kredit müqaviləsi üzrə borc verən Əsədov Məcid Fərhad oğlu Cəmiyyətin müşahidə şurasının üzvü olmaqla, əlaqəli tərəf hesab edilir. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49.1.1 maddəsinə müvafiq olaraq bütün prosedurlara əməl edilmişdir.

Borc vəsaitlərinin hər bir kateqoriyası 31 dekabr 2022 və 2021-ci il tarixlərinə onların ədalətli dəyərinə bərabərdir. 31 dekabr 2022-ci il tarixinə cəlb edilmiş vəsaitlərin təxmin edilən ədalətli dəyəri 3,528,302 manat təşkil edir (2021: 2,403,364 manat). Banklara və digər maliyyə institutlarına borc vəsaitlərinə hesablanmış ödənilməmiş faiz öhdəlikləri 31 dekabr 2022 və 2021-ci il tarixlərinə, müvafiq olaraq 13,313 və 161,446 təşkil etmişdir.

## 20. Nizamnamə kapitalı

Cəmiyyətin 31 dekabr 2022-ci il və 31 dekabr 2021-ci illər üçün elan edilmiş nizamnamə kapitalı 452,300 manat təşkil edir və nominal dəyəri 100 manat olmaqla 4523 paydan ibarətdir.

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| "AqroMostFinans" MMC (Rusiya Federasiyası) | 452,300 | 452,300 |

Cəmiyyətin yeganə təsisçisi 100% paya malik olan Rusiya Federasiyasında qeydiyyatdan keçən və qanunvericiliyi əsasında fəaliyyət göstərən "AqroMostFinans" MMC şirkətidir.

## 21. Kapital ehtiyatları

Kapital ehtiyatları kimi təsnif olunmuş məbləğə 2000-ci ildə Amerika Beynəlxalq İnkişaf Agentliyi tərəfindən verilmiş 3,000,000 ABŞ dolları daxildir. Cəmiyyət, 2009-cu ildə "Sosial Məsuliyyət Layihəsi" – nin dəstəklənməsi çərçivəsində Azərbaycan Respublikasında fəaliyyət göstərən 5 mikro kredit Cəmiyyətinə ümumilikdə 1,000,000 AZN (1,250,000 ABŞ dolları) məbləğində qrant ayrılmasına razılığını bildirmişdir.

31 dekabr 2022-ci il tarixinə kapital ehtiyatları müvafiq olaraq 1,593,963 manat (2021: 1,593,963 manat) təşkil edir.

## 22. Mənfəət vergisi

Cəmiyyət, vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar MHBS-dan fərqlənə bilər.

Bəzi xərclər vergiyə cəlb olunmadığından və bəzi gəlirlər vergidən azad olduğundan Cəmiyyət müəyyən daimi vergi fərqlərinin təsirinə məruz qalır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2022-ci il və 2021-ci il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasında müxtəlif üsulların istifadə edilməsinə, eləcə də bəzi aktivlər üzrə vergi uçotunda olan qalıqların maliyyə hesabatlarında olan qalıqlara nisbətən fərqli olması nəticəsində yaranır.

Azərbaycan Respublikasının vergi qanunvericiliyi xüsusilə fərqli şərhlərə və dəyişikliklərə səbəb ola bilər. Bundan əlavə, vergi qanunvericiliyinə dair rəhbərliyin şərhi vergi orqanlarının şərhindən fərqlənə biləcəyi üçün, sövdələşmələrə vergi orqanları tərəfindən etiraz edilə bilər və nəticədə Cəmiyyətə maliyyə hesabatları üçün əhəmiyyətli olacaq əlavə vergilər, cəzalar və faizlər təyin oluna bilər.

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Cari mənfəət vergisi xərci (-) | - | - |
| Təxirə salınmış vergi xərci (-)/gəliri (+) | 699,423 | (27,618) |
| **Cəmi mənfəət vergisi xərci (-) / gəliri (+)** | **699,423** | **(27,618)** |

Gözlənilən və faktiki tətbiq edilən vergi xərclərinin tutuşdurulması aşağıda göstərilir:

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| **MHBS-na əsasən vergitutmadan əvvəlki mənfəət** | **(415,342)** | **(1,411,336)** |
| Qanunvericiliklə müəyyən edilmiş vergi dərəcəsinə əsasən hesablanmış mənfəət vergisi xərci (2021 – 20%) | 83,068 | 282,267 |
| Vergi məqsədləri üçün çıxılmayan xərclər və ya vergidən azad edilməyən gəlirlərin vergi effekti: | | |
| - Tanınmış xərclər - amortizasiya | | 87,881 |
| - Tanınmamış vergi zərərləri | 687,325 | (340,560) |
| - Hesabat ilinin çıxılası vergi zərəri | 16,665 | |
| - Gəlirdən çıxılmayan xərclər | (87,625) | (57,206) |
| **İl üzrə mənfəət vergisi xərci (-)/ gəliri (+)** | **699,423** | **(27,618)** |

MHBS və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində konsolidə olunmuş maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti fərqləri əmələ gəlir. Bu müvəqqəti fərqlər üzrə dövriyyələrin vergi təsiri aşağıda göstərilir və 20% (2021 – 20%) dərəcəsində qeydə alınır.

31 dekabr 2022-ci il tarixinə təxirə salınmış vergi aktivlərinin /öhdəliklərinin yaranmasına səbəb olan müvəqqəti fərqlərin vergi təsiri aşağıda göstərilir:

| | 31 Dekabr 2021 | Mənfəət və zərər hesabatında debet/kredit | 31 Dekabr 2022 |
|---|---|---|---|
| **Vergi bazasının azaldan/artıran müvəqqəti zaman fərqlərinin vergi təsiri** | | | |
| Hesablanmış gəlirlər | | | |
| **Qeydə alınmış təxirə salınmış vergi öhdəliyi** | - | - | - |
| **Vergi bazasının azaldan/artıran müvəqqəti zaman fərqlərinin vergi təsiri** | | | |
| Ümidsiz borclar üzrə zərərlər üzrə ehtiyatlar | **4,557** | (4,557) | - |
| Əvəzləşdiriləcək vergi zərəri (2020 il) | | 346,765 | 346,765 |
| Əvəzləşdiriləcək vergi zərəri (2021 il) | | 340,560 | 340,560 |
| Əvəzləşdiriləcək vergi zərəri (2022 il) | | 16,655 | 16,655 |
| **Qeydə alınmış təxirə salınmış vergi aktivi** | **4,557** | **699,423** | **703,980** |
| **Netto təxirə salınmış vergi aktivi (+) /Öhdəliyi (-)** | **4,557** | **699,423** | **703,980** |

Maliyyə hesabatlığı məqsədləri üçün aktivlərin və öhdəliklərin balans məbləğləri ilə vergiqoyma məqsədləri üçün istifadə olunan məbləğlər arasındakı müvəqqəti fərqlər nəticəsində 31 dekabr 2022 və 2021-ci il tarixlərinə xalis təxirə salınmış vergi aktivləri yaranmışdır. Gələcək vergi güzəştləri yalnız o zaman realizasiya olunacaq ki, istifadə olunmayan vergi zərərlərinin istifadə oluna biləcəyi mənfəət mövcud olsun və qanun və qaydalarda Cəmiyyətın gələcək dövrlərdə tutulmalar iddia etmək qabiliyyətinə mənfi təsir edən dəyişiklik baş verməsin.

Bu gələcək vergi güzəştləri onların realizasiyası ilə bağlı qeyri-müəyyənliklərlə əlaqədar olaraq bir hissəsi tanınmır.Tutula bilən müvəqqəti fərqlər cari vergi qanunvericiliyinə əsasən qüvvədən düşmür.

2022-ci və 2021-ci ilin zərərləri üzrə növbəti dövrə keçirilən vergi zərəri vergi məcəlləsinə uyğun olaraq növbəti 5 il ərzində qüvvədə qalır.

## 23. Şərti öhdəliklər

**Məhkəmə prosedurları**

Vaxtaşırı olaraq və adi fəaliyyətin gedişində müştərilər və əməkdaşlar tərəfindən Cəmiyyəta qarşı iddialar sürülə bilər. Cəmiyyətın rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün heç bir ehtiyat yaradılmamışdır.

**Vergi qanunvericiliyi**

Azərbaycan Respublikasının vergi qanunvericiliyindəki müddəalara bəzən müxtəlif şərhlər və dəyişikliklər baş verir və bu dəyişikliklər müxtəlif mənalarda şərh edilə bilər və nəticədə vergi orqanları bu müddəaları özləri hesab etdikləri kimi şərh edə bilərlər.Praktikada, vergi orqanları belə hallarda adətən vergi ödəyicilərinin əleyhinə qərar çıxarırlar ki, nəticədə vergi ödəyiciləri öz hüquqlarını məhkəmə vasitəsilə müdafiə etməyə məcbur olurlar. Qeyd etmək lazımdır ki, vergi orqanları məhkəmə orqanları tərəfindən təqdim edilmiş "haqsız vergi qazancı", "əməliyyatın əsas kommersiya məqsədi" konsepsiyalarından və "əməliyyatın kommersiya mahiyyəti/(məqsədi)" kriteriyalarından istifadə edə bilərlər.

Belə qeyri-müəyyənliklər, əsasən maliyyə alətlərinin/derivativlərin və transfer qiymətini təyin etmək məqsədilə əməliyyatın bazar qiymətinin istifadə edilməsi zamanı vergi qanunvericiliyinə uyğun olaraq şərhinə aid edilə bilər. Bu hallar eləcə də kreditlər üzrə ehtiyatların yaradılması zamanı yaranan müvəqqəti fərqlərin və bunun vergi öhdəliyinə təsirinin vergi orqanları tərəfindən mənfəət vergisi bazasının bilərəkdən azaldılması kimi şərh

edilməsinə aid edilə bilər. Cəmiyyətin rəhbərliyi əmindir ki, bütün lazımi vergilər hesablanmış, öhdəliklər yaradılmışdır və ona görə də əlavə vergi ehtiyatının yaradılmasına ehtiyac yoxdur.

Ümumiyyətlə, vergi ödəyicilərinin audit tarixindən əvvəlki üç ilə aid maliyyə təsərrüfat fəaliyyəti vergi orqanları tərəfindən yoxlanıla bilər. Bundan əlavə, vergi yoxlamaları başa çatsa belə aparılmış yoxlamaların daha yüksək vergi orqanları tərəfindən yoxlanılması ehtimalı da istisna edilmir. Həmçinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarının müddəalarına əsasən vergi yoxlamasının əhatə etdiyi üç illik limit, məhkəmənin qərarına əsasən vergi ödəyicisinin vergi orqanlarını bilərəkdən yanlış istiqamətləndirdiyi və onlara çaşdırıcı məlumatlar verdiyi hallarda uzadıla bilər.

## 24. Əlaqəli tərəflərlə əməliyyatlar

Əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Cəmiyyətin birbaşa, dolayısı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Cəmiyyətin fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Cəmiyyətin fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;
(b) Assosiasiya edilmiş müəssisələr – Cəmiyyət tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;
(c) Cəmiyyətin tərəf kimi çıxış etdiyi birgə müəssisələr;
(d) Cəmiyyətin və ya ana şirkətin idarə heyətinin üzvləri;
(e) (a) və (d) bəndlərində göstərilən şəxslərin ailə üzvləri;
(f) (d) və ya (e) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayısı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr aiddir; və ya
(g) İş müddəti bitdikdən sonra Cəmiyyətin keçmiş işçiləri və ya Cəmiyyətin əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

Ehtimal edilən hər hansı bir əlaqəli tərəfi nəzərə alarkən, əlaqənin təkcə hüquqi formasına deyil həmçinin mahiyyətinə diqqət yetirilir.

Cəmiyyətin 31 dekabr 2022-ci il və 2021-ci il tarixlərinə əlaqəli tərəflərə aid aşağıdakı qalıqları mövcud olmuşdur:

| | 31 dekabr 2022-ci il | | 31 dekabr 2021-cu il | |
|---|---|---|---|---|
| **Əlaqəli tərəflərə aid qalıqlar - Aktiv + /Öhdəlik -** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ** |
| Müştərilərə verilmiş kreditlər - Əsədov Məcid Fərhad oğlu | 224,687 | 5,315,705 | 264,483 | 4.324,070 |
| Əlaqəli tərəf qarşısında borc öhdəliyi - Əsədov Məcid Fərhad oğlu | (510,000) | (510,000) | - | - |
| Əlaqəli tərəf qarşısında borc öhdəliyi - AqroMostFinans | (850,000) | (850,000) | (850,000) | (850,000) |
| Hesablanmış faizlər üzrə öhdəlik | (4,647) | (13,313) | (13,996) | (161,446) |

Aşağıda qeyd olunan məbləğlər əlaqəli tərəflərlə əməliyyatlardan yaranmış və 31 dekabr 2022 və 2021-ci illər üzrə məcmu gəlir hesabatına daxil edilmişdir.

*(başqa cür qeyd edilməyənə qədər, Azərbaycan manatı ilə)*

| Əlaqəli tərəflərlə əməliyyatlar Xərclər + /Gəlirlər - | 31 dekabr 2022-ci il | | 31 dekabr 2021-cu il | |
|---|---|---|---|---|
| | Əlaqəli tərəflərlə əməliyyatlar | Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ | Əlaqəli tərəflərlə əməliyyatlar | Maliyyə hesabatlarında bu bənd üzrə cəmi məbləğ |
| Əmək haqqı və sosial sığorta xərcləri | 403,574 | 1,133,187 | 359,061 | 1,170,604 |
| Faiz xərcləri | 53,181 | 77,280 | 104,253 | 248,357 |
| İnzibati və digər əməliyyat xərcləri | 197,990 | 715,190 | 140,118 | 1,442,651 |

## 25. Maliyyə alətlərinin ədalətli dəyəri

**Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə alətlərinin ədalətli dəyəri:**

Cəmiyyət müəyyən qiymətləndirmə üsulları ilə maliyyə alətlərinin ədalətli dəyərini açıqlamaq üçün aşağıdakı qiymətləndirmə səviyyələrindən istifadə edir:

- 1-ci səviyyə: Fəal bazarda eyni bir alət üçün aktiv bazar qiymətləri (nizamlanmamış).
- 2-ci səviyyə: birbaşa (yəni qiymətlər kimi), ya da bilavasitə (yəni qiymətlərdən törəyən) müşahidə oluna bilən, 1-ci səviyyəyə daxil edilmiş kotirovka olunan qiymətdən başqa digər ilkin göstəricilər. Bu kateqoriyaya aşağıdakı amillərdən istifadə etməklə qiymətləndirilən alətlər daxildir: analoji alətlər üçün fəal bazarda tətbiq edilən bazar qiymətləri; analoji alətlər üzrə kifayət qədər fəal hesab olunmayan bazarlarda tətbiq edilən qiymətlər; və ya bütün əhəmiyyətli ilkin göstəricilərin birbaşa, yaxud dolayısı ilə bazar məlumatlarından müşahidə olunabildiyi sair qiymətləndirmə üsulları.
- 3-cü səviyyə: ilkin göstəricilər müşahidə oluna bilmir. Bu kateqoriyaya aid edilən alətlərin qiymətləndirmə metoduna müşahidə edilə bilən məlumata əsaslanmayan ilkin göstəricilər daxildir və müşahidə edilə bilməyən ilkin göstəricilər həmin alətin qiymətləndirilməsində əhəmiyyətli təsirə malikdir. Bu kateqoriyaya oxşar alətlər üçün kotirovka olunan qiymətlər əsasında qiymətləndirilən alətlər daxildir və buzaman alətlər arasında fərqi əks etdirmək üçün mühüm müşahidə olunmayan tənzimləmələr və ya mülahizələr tələb olunur.

Aşağıdakı cədvəl ədalətli dəyərində ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərinin hərbir ədalətli dəyər ölçülməsinin 31 dekabr 2022-ci il tarixinə təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir:

| | Səviyyə 1 | Səviyyə 2 | Səviyyə 3 | Cəmi: |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 114,462 | | **114,462** |
| Banklara qoyulmuş depozitlər | | 446,661 | | **446.661** |
| Müştərilərə verilmiş kreditlər | | | 5,315,705 | **5,315,705** |
| Digər maliyyə aktivləri | | | 281,849 | **281,849** |
| **Cəmi maliyyə aktivləri** | **-** | **561,123** | **5,597,554** | **5,188,677** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Uzunmüddətli borc vəsaitləri | | | 1,207,362 | **1,207,362** |
| Qısamüddətli borc vəsaitləri – ƏT | | | 510,000 | **510,000** |
| Qiymətli kağızlar üzrə öhdəlik | | | 960,940 | **960,940** |
| Uzunmüddətli borc öhdəliyi - ƏT | | | 850,000 | **850,000** |
| Hesablanmış faizlər üzrə borclar | | | 13,313 | **13,313** |
| Digər maliyyə öhdəlikləri | | | 314,184 | **314,184** |
| **Cəmi maliyyə öhdəlikləri** | **-** | **-** | **3,855,799** | **3,855,799** |

Aşağıdakı cədvəl ədalətli dəyərində ölçülməyən maliyyə alətlərinin ədalətli dəyərinin hər bir ədalətli dəyər ölçülməsinin 31 dekabr 2021-cu il tarixinə təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir:

| | Səviyyə 1 | Səviyyə 2 | Səviyyə 3 | Cəmi: |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 545,543 | | **543,070** |
| Banklara qoyulmuş depozitlər | | 1,184 | - | **1,184** |
| Müştərilərə verilmiş kreditlər | | | 4,324,070 | **4,324,070** |
| Digər maliyyə aktivləri | | | 61,903 | **61,903** |
| **Cəmi maliyyə aktivləri** | | **546,727** | **4,385,973** | **4,932.700** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Uzunmüddətli borc vəsaitləri | | | 1,553,364 | **1,553,364** |
| Qısamüddətli borc vəsaitləri – ƏT | | | | **-** |
| Qiymətli kağızılar üzrə öhdəlik | | | | **-** |
| Uzunmüddətli borc öhdəliyi - ƏT | | | 850,000 | **850,000** |
| Hesablanmış faizlər üzrə borclar | | | 161,446 | **161,446** |
| Digər maliyyə öhdəlikləri | | | 408,813 | **408,813** |
| **Cəmi maliyyə öhdəlikləri** | - | - | **2,973,623** | **2,973,623** |

## 26. Maliyyə risklərinin idarə edilməsi

Cəmiyyətin fəaliyyəti üçün risklərin idarə edilməsi Cəmiyyət əməliyyatlarının mühüm elementini təşkil edir. Cəmiyyətin əməliyyatlarına təsir göstərəcək əsas risklər aşağıdakılardan ibarətdir:

- Kredit riski
- Likvidlik riski
- Bazar riski

Cəmiyyət rəhbərliyi anlayır ki, səmərəli və effektiv risk idarəetmə sisteminə malik olmaq vacib şərtdir.Bu məqsədlə, Cəmiyyət rəhbərliyi risklərin idarə olunması komitəsi yaratmışdır.Bu komitənin əsas məqsədi Cəmiyyəti ehtimal edilən risklərə qarşı qorumaq və ona qarşıda qoyulan hədəflərə çatmaq imkanı yaratmaqdır. Risklərin idarə olunması komitəsi vasitəsilə Cəmiyyət rəhbərliyi, aşağıdakı risklərin idarə olulnmasına nəzarət edir:

**Kredit riski**

Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəf öz öhdəliyini yerinə yetirməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurduqda, Cəmiyyət kredit riskinə məruz qalır. Kredit riski Cəmiyyət ın qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır.

Cəmiyyət hesab edir ki, kredit riskini aşağıdakı konsepsiya qiymətlədirir:

GKZ hesablamalarının mexanizmi aşağıdakı təsvir olunur və əsas elementləri bunlardır:

| | |
|---|---|
| DE | Defolt ehtimalı müəyyən vaxt civarında defoltun mümkünlüyünün qiymətləndirilməsidir. Defolt, təhlil edilən müddət ərzində müəyyən anda yalnız müvafiq vəsait daha əvvəl uçotdan çıxarılmamış və hələ də portfelə daxil olanda yarana bilər. |
| DHRH | Defolt halında riskin həcmi, müqavilədə nəzərdə tutulub-tutulmamasından asılı olmayaraq, əsas və faiz məbləğlərinin qaytarılması, kredit öhdəliyi üzrə gözlənilən vəsaitlərin istifadəsi və yerinə yetirilməmiş ödənişlər üzrə hesablanmış faiz də daxil olmaqla hesabat tarixindən sonra risk həcmində gözlənilən dəyişikliyi nəzərə almaqla gələcək defolt tarixində risk həcminin qiymətləndirilməsidir. |
| DHZ | Defolt halında zərər müəyyən zaman defolt yarananda əmələ gələn zərərin qiymətləndirilməsidir.Bu, müqavilə ilə nəzərdə tutulmuş ödəniləcək pul vəsaitləri ilə kreditorun əldə etməyi gözlədiyi pul vəsaitləri arasındakı fərqə əsaslanır. Bu, adətən DHZ faizi kimi ifadə edilir. |

Özünün GKZ modelərində Cəmiyyət geniş miqyaslı proqnoz məlumatlarına, məsələn kredit riski komponentlərin qiymətləndirmələrinə inteqrasiya olunmuş iqtisadi göstəricilərə əsaslanır. Dəyərsizləşmə zərərləri və azatetmələr maliyyə aktivinin ümumi balans dəyərinə düzəliş kimi uçota alınan modifikasiya zərərlərindən ayrı olaraq uçota alınır və açıqlanır.

Cəmiyyət hesab edir ki, ilkin tanımadan sonra kredit reytinqi əhəmiyyətli dərəcədə pisləşdikdə kredit riski əhəmiyyətli dərəcədə artmışdır. Əhəmiyyətli pisləşmə səviyyəsi seqmentdən seqmentə fərqlənir və 2-ci və 3-cu pillə arasında və ya müəyyən edilmiş litim daxilində dəyişir. Cəmiyyət həmçinin aktiv üzrə kredit riskinin əhəmiyyətli artmasına təkan vermək üçün 2-ci dərəcəli keyfiyyət metodunu tətbiq edir, məsələn müştərinin / obyektin müşahidə siyahısına daxil edilməsi və ya hesabın saxlanması. Kredit reytinqinin dəyişməsindən asılı olmayaraq müqavilə ödənişləri 30 gündən artıqdırsa, kredit riski ilkin tanıma anından etibarən əhəmiyyətli artmış hesab olunur.

Borcalan müqavilə şərtlərindən asılı olaraq müqavilə ödənişlərini 90 gün gecikdirərsə, Cəmiyyət maliyyə alətinin defolt olduğunu və buna görə də GKZ hesablamaları üçün Mərhələ 3-ün (kredit üzrə dəyərsizləşmə) əmələ gəldiyini hesab edir. Cəmiyyət gün ərzində tələb olunan ödənişlər fərdi müqavilələrdə göstərildiyi kimi iş gününün bağlanması səbəbi ilə ödənilməyəndə kassa və banklararası qalıqlarını defolt hesab edir və dərhal tədbirlər görür. Müştərinin defolt vəziyyətində olub-olmamasını keyfiyyət baxımından qiymətləndirilməsi çərçivəsində Cəmiyyət GKZ-ni AYKD aktivləri, kreditin dəyərsizləşməsi amilləri olan əhəmiyyətli aktivlər və kredit riskinin əhəmiyyətli artması amilləri olan müəyyən aktivlər üçün fərdi əsasla hesablayır. Cəmiyyət bütün digər siniflərdən olan aktivləri homogen borcalanlar qruplarına GKZ-ni kreditlərin daxili və xarici xüsusiyyətlərinin birləşməsi əsasında məcmu şəkildə hesablayır

GKZ ehtiyatı aktivin müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə əsaslanır. Lakin əmələ gəldiyi andan kredit riskində əhəmiyyətli artım olmadığı hallarda ehtiyat 12 aylıq gözlənilən kredit zərərinə əsaslanır. 12aGKZ hesabat tarixindən sonra 12 ay ərzində mümkün olan maliyyə alətləri ilə bağlı öhdəliklərin yerinə yetirilməməsindən irəli gələn GKZ-dən ibarətdir.

Hər hesabat dövrünün sonunda Cəmiyyət, maliyyə alətinin qalan müddəti üzrə öhdəliklərin yerinə yetirilməməsi riskindəki dəyişiklikləri nəzərdən keçirməklə, KRAƏ maliyyə aləti üzrə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli artıb-artmamasının qiymətləndirilməsi siyasətini tətbiq etmişdir. Yuxarıdakı prosesə əsaslanaraq, Cəmiyyət kreditləri aşağıdakı kimi qruplaşdırılır:

| | |
|---|---|
| Mərhələ 1: | Kreditlər ilk dəfə tanınanda, Cəmiyyət ehtiyatı 12aGKZ əsasında tanıyır. Mərhələ 1-in kreditlərinə həm də kredit riskinin azaldığı və Mərhələ 2-dən yenidən təsnif edilmiş vəsaitlər daxildir. |
| Mərhələ 2: | Kredit verildiyi andan etibarən kredit riski əhəmiyyətli dərəcədə artanda Cəmiyyət ehtiyatı KRAƏ üzrə tanıyır. Mərhələ 2 kreditlərinə həm də kredit riskinin azaldığı və Mərhələ 3-dən təsnif edilmiş vəsaitlər daxildir. |
| Mərhələ 3: | Dəyərsizləşmiş hesab olunan kreditlər. Cəmiyyət ehtiyatı KRAƏ üzrə tanıyır. |
| AYKD: | Alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri (AYKD) ilkin tanınma zamanı kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləridir. AYKD aktivləri ilkin tanınmada ədalətli dəyərlə qeydə alınır və faiz gəliri sonradan krediti nəzərə almaqla düzəliş edilmiş EFD əsasında tanınır. GKZ yalnız gözlənilən kredit zərərlərində sonradan dəyişiklik baş verəndə tanınır və ya ləğv edilir. |

**Maksimal risk**
Cəmiyyətin məruz qaldığı maksimal kredit riski fərdi risklərdən və ümumi iqtisadiyyatın daşıdığı risklərdən asılı olaraq əhəmiyyətli dərəcədə fərqlənir.

Aşağıdakı cədvəl maliyyə aktivlərinin və öhdəliklərinin risklərə məruz qalmasının maksimal həddini təqdim edir.Maliyyə aktivləri üçün bu məbləğ əvəzləşdirmələr və mövcud girovlar çıxıldıqdan sonar aktivlərin qalıq dəyərinə bərabərdir. Maliyyə qarantiyaları və digər şərti təəhhüdlər üçün kredit riskinə məruz qalmanın maksimal həddi, bu qarantiyalar üzrə üçüncü şəxslərə ödənilməli olan mütləq məbləğlər, kredit öhdəliklərində isə müştəri tərəfindən tələb edilən vəsaitlərin məbləği kimi təyin edilir.

| | 2022-ci il | | |
|---|---|---|---|
| | **Maksimal risk** | **Alınmış təminatlar** | **Alınmış təminatlardan sonra xalis risk** |
| Müxbir bank hesabları | 114,462 | | **114,462** |
| Banklara qoyulmuş depozitlər | 446,661 | | **446,661** |
| Müştərilərə verilmiş kreditlər | 5,315,705 | 2,018,378 | **3,297,327** |
| Digər maliyyə aktivləri | 281,849 | | **281,849** |
| | **6,158,677** | **2,018,378** | **4,140,299** |

| | 2021-ci il | | |
|---|---|---|---|
| | **Maksimal risk** | **Alınmış təminatlar** | **Alınmış təminatlardan sonra xalis risk** |
| Müxbir bank hesabları | 545,543 | | **545,543** |
| Banklara qoyulmuş depozitlər | 1,184 | | **1,184** |
| Müştərilərə verilmiş kreditlər | 4,324,070 | 904,179 | **3,419,891** |
| Digər maliyyə aktivləri | 61,903 | | **61,903** |
| | **4,932,700** | **904,179** | **4,028,521** |

**Coğrafi konsentrasiya**

Aktiv və öhdəliklərin coğrafi konsentrasiyası aşağıdakı kimi göstərilir:

| *2022-ci il* | **Azərbaycan Respublikası** | **İƏİT ölkələri** | **MDB ölkələri** | **31 dekabr 2022** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul və pul vəsaitləri | 114,462 | | | **114,462** |
| Banklara qoyulmuş depozitlər | 446,661 | | | **446,661** |
| Müştərilərə verilmiş kreditlər | 5,315,705 | | | **5,315,705** |
| Digər maliyyə aktivləri | 281,849 | | | **281,849** |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **6,158,677** | - | - | **6,158,677** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Uzunmüddətli borc vəsaitləri | 1,207,362 | | | **1,207,362** |
| Qısamüddətli borc vəsaitləri – ƏT | 510,000 | | | **510,000** |
| Qiymətli kağızlar üzrə öhdəlik | 960,940 | | | **960,940** |
| Uzunmüddətli borc öhdəliyi - ƏT | | | 850,000 | **850,000** |
| Hesablanmış faizlər üzrə borclar | 10,848 | | 2,465 | **2,465** |
| Digər maliyyə öhdəlikləri | 314,184 | | | **314,184** |
| **Cəmi maliyyə öhdəlikləri** | **3,003,334** | | **852,465** | **3,855,799** |
| **Xalis mövqe** | **3,155,343** | | **(852,465)** | **2,302,878** |

| *2021-ci il* | **Azərbaycan Respublikası** | **İƏİT ölkələri** | **MDB ölkələri** | **31 dekabr 2021** |
|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul və pul vəsaitləri | 545,543 | | | **545,543** |
| 11Banklara qoyulmuş depozitlər | 1,184 | | | **1,184** |
| Müştərilərə verilmiş kreditlər | 4,324,070 | | | **4,324,070** |
| Digər maliyyə aktivləri | 61,903 | | | **61,903** |
| **Cəmi maliyyə aktivləri** | **4,932,700** | - | - | **4,932,700** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Uzunmüddətli borc vəsaitləri | 1,700,814 | | | **1,700,814** |
| Qısamüddətli borc vəsaitləri – ƏT | | | | - |
| -Qiymətli kağızlar üzrə öhdəlik | | | | |
| Uzunmüddətli borc öhdəliyi - ƏT | | | 850,000 | **850,000** |
| Hesablanmış faizlər üzrə borclar | | | 13,996 | **13,996** |
| Digər maliyyə öhdəlikləri | 408,813 | | | **408,813** |
| **Cəmi maliyyə öhdəlikləri** | **2,109,627** | - | **863,996** | **2,109,627** |
| **Xalis mövqe** | **2,823,073** | - | **(863,996)** | **2,802,151** |

***Likvidlik riski***

Likvidlik riski maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində Cəmiyyətin çətinliklərlə üzləşəcəyi riskdir. Buraya faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri üzrə digər maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır.

Cəmiyyətin Rəhbərliyinin fikrincə aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və nəzarət olunan uyğunsuzluğu maliyyə təşkilatlarının idarə olunması üçün əsas amillərdir.

Likvidlik risklərinin idarə edilməsi məqsədilə, Cəmiyyət aktiv/öhdəliklərin idarə edilməsi prosesinin bir hissəsi kimi müştərilərin və bankların əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinə hər gün nəzarət edir. Onlar həmçinin öhdəlik bazasının diversifikasiya riski üzrə parametrlər müəyyən edir.

Cəmiyyətin likvidlik siyasəti aşağıdakıları özündə əks etdirir:

- Pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və müxtəlif vaxt çərçivələrində likvidliyin təmin edilməsi üçün lazımi likvid aktivlərin səviyyəsinin saxlanması;
- Cəmiyyətin strateji məqsədlərinə uyğun olan maliyyələşdirmə planının hazırlanması;
- Müxtəlif maliyyələşdirmə mənbələrinin saxlanması və bununla, Cəmiyyətin yerli və xarici mənbələrdən borc almaq imkanlarının artırılması;
- Yüksək likvidli və yüksək keyfiyyətli aktivlərin saxlanması;
- Məhsul bazasının müəyyən vaxt çərçivəsində mövcud maliyyələşdirmə mənbələrinə uyğunlaşdırılması; və
- Müəyyən vaxt çərçivəsində aktiv və öhdəlik strukturunun davamlı monitorinqinin aparılması.

Aşağıdakı cədvəllərdə likvidlik və faiz dərəcələri risklərinin təhlili təqdim edilmişdir. Cədvəllər aşağıdakı məqamları əks etdirir:

| *2022-ci il* | **Tələb olunana və ya 1 aya qədər** | **1 aydan 6 ayadək** | **6 aydan 1 ilədək** | **1 ildən 5 ilədək** | **31 dekabr 2022 tarixinə Cəmi** |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Banklara qoyulmuş depozitlər | 114,462 | | | | **114,462** |
| Müştərilərə verilmiş kreditlər | 446,661 | | | | **446,661** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 514,610 | 103,480 | 685,107 | 4,012,508 | **5,315.705** |
| Digər maliyyə aktivləri | 281,849 | | | | 281,849 |
| **Cəmi maliyyə aktivləri** | **1,357,582** | **103,480** | **685,107** | **4,012,508** | **6,158,844** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Uzunmüddətli borc vəsaitləri | | | 603,680 | 603,682 | **1,207,362** |
| Qısamüddətli borc vəsaitləri – ƏT | | 510,000 | | | **510,000** |
| -Qiymətli kağızlar üzrə öhdəlik | | | | 960,940 | **960,940** |
| Uzunmüddətli borc öhdəliyi - ƏT | | | | 850,000 | **850,000** |
| Hesablanmış faizlər üzrə borclar | 13,313 | | | | **13,313** |
| Digər maliyyə öhdəlikləri | 408,813 | | | | **408,813** |
| **Cəmi maliyyə öhdəlikləri** | **422,126** | **510,000** | **603,680** | **2,414,622** | **3,950,428** |
| **Xalis likvidlik aralığı** | **935,456** | **(406,520)** | **81,427** | **1,597,886** | **2,208,249** |
| **Yığılmış likvidlik aralığı** | **935,456** | **528,936** | **610,363** | **2,208,249** | **4,416,498** |

| *2021-ci il* | **Tələb olunana və ya 1 aya qədər** | **1 aydan 6 ayadək** | **6 aydan 1 ilədək** | **1 ildən 5 ilədək** | **31 dekabr 2022 tarixinə Cəmi** |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 545,543 | | | | **545,543** |
| Banklara qoyulmuş depozitlər | 1,184 | | | | **1.184** |
| Müştərilərə verilmiş kreditlər | 531,550 | 1,092,582 | 979,974 | 1,719,964 | **4,324,070** |
| Digər maliyyə aktivləri | 18,753 | 43,150 | | | 61,903 |
| **Cəmi maliyyə aktivləri** | **1.097,030** | 1,135,732 | 979,974 | 1,719,964 | **4,932,700** |

| | | | | | |
|---|---|---|---|---|---|
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Uzunmüddətli borc vəsaitləri | 70,488 | 43,587 | 261,528 | 1,177,761 | **1,553,364** |
| Qısamüddətli borc vəsaitləri – ƏT | | | | | |
| -Qiymətli kağızlar üzrə öhdəlik | | | | | |
| Uzunmüddətli borc öhdəliyi - ƏT | 178,003 | 671,997 | | | **850,000** |
| Hesablanmış faizlər üzrə borclar | 161,446 | | | | **161,446** |
| Digər maliyyə öhdəlikləri | 408,713 | | | | **408,713** |
| **Cəmi maliyyə öhdəlikləri** | **818,750** | **715,584** | **261,528** | **1,177,761** | **2,973,623** |
| **Xalis likvidlik aralığı** | **278,280** | **420,148** | **718,446** | **542,203** | **1,959,077** |
| **Yığılmış likvidlik aralığı** | **278,280** | **698,428** | **1,416,874** | **1,959,077** | **3,919,154** |

**Bazar riski**

Bazar riskinə, faiz dərəcəsində, xarici valyuta məzənnələrində və qiymətləndirmədəki dəyişmələrdən yaranan və Cəmiyyətın məruz qaldığı risklər aiddir. 31 dekabr 2022-ci və 2021-ci il tarixlərində bu risklərin Cəmiyyət tərəfindən qiymətləndirilməsində və Cəmiyyətın məruz qaldığı bazar risklərində dəyişikliklər olmamışdır.

**Faiz dərəcəsi riski**

Aşağıdakı cədvəl "risk göstəricisinin ehtimal edilən mümkün dəyişməsi" üsulu ilə hesablanmış və faizlərin dəyişməsinə Cəmiyyətın həssaslığını təqdim edir. Bu dəyişikliklərin həddi rəhbərlik tərəfindən təyin edilir və onlara təqdim edilən risk hesabatlarında öz əksini tapır.

| | **31 dekabr 2022** | | **31 dekabr 2021** | |
|---|---|---|---|---|
| | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi -1%** | **Faiz dərəcəsi +1%** | **Faiz dərəcəsi -1%** |
| **Maliyyə aktivləri:** | | | | |
| Banklara qoyulmuş depozitlər | 4,467 | (4,467) | 12 | (12) |
| Müştərilərə verilmiş kreditlər | 57,159 | (57,159) | 54,070 | (54,070) |
| **Maliyyə öhdəlikləri:** | | | | |
| Borc vəsaitləri | (35,283) | 35,283 | (27,585) | 27,585 |
| **Vergidən əvvəlki mənfəətə xalis təsir** | **26,343** | **(26,343)** | **26,497** | **(26,497)** |

**Xarici valyuta riski**

Valyuta riski - maliyyə alətinin dəyərinin xarici valyuta dərəcələrində dəyişikliklərə görə tərəddüd etməsi riskidir. Rəhbərlik açıq valyuta mövqeləri üzrə limitlər müəyyən etmişdir. Mövqelərə gündəlik monitorinq edilir.

Cəmiyyətın maliyyə vəziyyəti və pul vəsaitlərinin hərəkəti mövcud valyuta məzənnələrinin dəyişməsi zamanı belə risklərin təsirinə məruz qalır.

Cəmiyyətın xarici valyuta məzənnələrinin dəyişməsi zamanı məruz qalacağı risklər aşağıdakı cədvəldə təqdim edilmişdir:

| **Valyuta** | **2022-ci il** | | | **2021-ci il** | | |
|---|---|---|---|---|---|---|
| | **Monetar maliyyə aktivləri** | **Monetar maliyyə öhdəlikləri** | **Xalis mövqe** | **Monetar maliyyə aktivləri** | **Monetar maliyyə öhdəlikləri** | **Xalis mövqe** |
| EUR/AZN | - | - | - | - | - | - |
| USD/AZN | 143,768 | (843,707) | (699,939) | 271,152 | (611,335) | (340,182) |
| GBP/AZN | - | - | - | - | - | - |

**Xarici valyuta riskinə həssaslıq**

Aşağıdakı cədvəldə 31 dekabr tarixində Cəmiyyətin qeyri-ticarət monetar aktivləri və öhdəlikləri və proqnozlaşdırılmış pul axınları üzrə əhəmiyyətli riskə məruz qaldığı valyutalar göstərilir. Təhlil bütün digər

dəyişənlərin sabit qalması şərti ilə, valyuta məzənnəsinin AZN-ə qarşı məntiqi dərəcədə mümkün olan hərəkətinin mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata təsirini (valyutaya qarşı həssas olan qeyri-ticarət monetar aktivlərin və öhdəliklərin ədalətli dəyərinə görə) hesablayır. Kapitala təsir mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata təsirdən fərqlənmir. Cədvəldə mənfi məbləğ mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda və ya kapitalda potensial xalis azalmanı, müsbət məbləğ isə xalis potensial artımı əks etdirir.

| | 2022-ci il | | 2021-ci il | |
|---|---|---|---|---|
| **Valyuta** | **Məzənnədə artım* %,** | **Vergidən əvvəlki mənfəətə təsir** | **Məzənnədə artım* %,** | **Vergidən əvvəlki mənfəətə təsir** |
| EUR/AZN | 10 | - | 10 | - |
| USD/AZN | 10 | (118,990) | 10 | (57,831) |
| GBP/AZN | 10 | - | 10 | - |

* *Bu, cədvəldə göstərilən valyutaların Azərbaycan manatına qarşı bahalaşmasını göstərir.*

| | 2022-ci il | | 2021-ci il | |
|---|---|---|---|---|
| **Valyuta** | **Məzənnədə azalma* %,** | **Vergidən əvvəlki mənfəətə təsir** | **Məzənnədə azalma* %,** | **Vergidən əvvəlki mənfəətə təsir** |
| EUR/AZN | 5 | - | 5 | - |
| USD/AZN | 5 | 59,495 | 5 | 28,916 |
| GBP/AZN | 5 | - | 5 | - |

* *Bu, cədvəldə göstərilən valyutaların Azərbaycan manatına qarşı ucuzlaşmasını göstərir.*

**Qiymət Riskləri**

Qiymət riski bazar qiymətlərinin dəyişməsi nəticəsində, bu dəyişikliklərin konkret qiymətli kağıza vəya onu yerləşdirən tərəfə məxsus amillərdən və ya bazarda alınıb-satılan bütün qiymətli kağızlara təsir göstərən amillərdən asılı olaraq, maliyyə alətinin dəyərinin dəyişməsi ilə əlaqədar riskdir.Cəmiyyət ümumi və ya xüsusi bazar dəyişmələrindən yaranan qiymət risklərinə məruz qalır.

**Həssaslıq təhlilinin məhdudiyyətləri**

Yuxarıda göstərilən cədvəllərdə qeyd olunan təsirlər yalnız bir təxminin dəyişməsini və bu zaman digər təxminlərin sabit qaldığını nəzərdə tutur. Reallıqda isə, təxminlər və digər faktorlar arasında korrelyasiya mövcuddur. O da qeyd edilməlidir ki, bu həssaslıq münasibətləri xətti şəkildə deyil, və bu nəticələri daha böyük və ya daha kiçik təsirləri ölçmək üçün interpolyasiya və ya ekstrapolyasiya etmək olmaz.

## 27. Hesabat tarixindən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonra əhəmiyyətli hadisə baş verməmmişdir.

" Kred Aqro BOKT" MMC

2022-ci il üzrə illik idarəetmə

Hesabatı

| | |
|---|---|
| 1. **Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi** | "KredAqro" Bank Olmayan Kredit Təşkilatı» Məhdud Məsuliyyətli Cəmiyyəti, Qısaldılmış adı: "KredAqro" BOKT » MMC; VÖEN 1400268191 |
| **2.emitentin hüquqi ünvanı və olduğu yer;** | Hüquqi ünvan: Azərbaycan Respublikası, AZ1075, Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli küçəsi, -1, 6B, Badamar Biznes Mərkəzinin 1-ci mərtəbəsi |
| **3. adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları;** | Emitent, 2000-ci il tarixdən başlayaraq "CredAqro" BOKT MMC, "CredAqro" QBKT, "KredAqro" BOKT ASC kimi, hal-hazırda isə hüquqi şəxs "KredAqro" BOKT MMC adındadır. |
| **4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;** | Yoxdur |
| **5.emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;** | Emitentin digər hüquqi şəxslərdə payı yoxdur. Emitent tərəfindən törəmə müəssisələr təsis edilməmişdir; Emitentin hüquqi ünvanı Bakı şəhəri, Səbail rayonu, Neftçi Abbas Qurban küçəsi 29 ünvanda olan Bayıl Plazanın 3-cü mərtəbə olaraq, 03 oktyabr 2022-ci il tarixdə dəyişilərək, hüquqi ünvan Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli küçəsi, -1, 6B, Badamar Biznes Mərkəzinin 1-ci mərtəbəsi |

| | |
|---|---|
| | kimi qeydiyyatdan keçmişdir. |
| **6.emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;** | Yoxdur |
| **7.emitentin məşğul olduğu fəaliyyət istiqamətləri;** | Təminatlı və təminatsız kreditlərin verilməsi və sığorta agenti fəaliyyəti, lizinq. |
| **8.emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri;** | Kredit verilməsi və sığorta agenti, müddətsiz. |
| **9.emitentin təklif etdiyi məhsullar və xidmətlər;** | Təminatlı və təminatsız istehlak kreditləri, daşınmaz əmlak təminatlı kreditlər, mikro kreditlər və lizinq. |
| **10.emitentin işçilərinin sayı və onun rüblük dinamikası;** | 31.12.22 tarixinə 91 nəfər, rüblük ortalama 5 nəfər |
| **11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı;** | Müşahidə Şurasının üzvləri: Timur Gusev, Aleksandr Gusev, Əsədov Məcid Fərhad oğlu; Baş Direktor: Həsənov Hidayət Məhərrəm oğlu; Audit Komitəsinin üzvləri: Timur Gusev, Aleksandr Gusev, Əsədov Məcid Fərhad oğlu . |
| **12.emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı;** | Yoxdur |
| **13.emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: yığıncağın keçirilmə tarixi və yeri (ünvan);ümumi yığıncaqda qəbul edilmiş qərarlar.** | 1) 05.01.2022-ci il, 2021 ci il hesabat ili üçün kənar auditin təyin olunması barədə;<br>2) 10.03.2022-ci il, Əvvəlki nizamnamənin ləğvi, yeni nizamnaməyə dəyişiklik edilərək qəbul olunması barədə;<br>3) 05.05.2022-ci il, 2021 ci ilin nəticələri ilə bağlı audit hesabatının müzakirəsi; |

| | |
|---|---|
| | 4) 15.09.2022-ci il, Təşkilatın hüquqi ünvanın dəyişilməsi ilə bağlı;<br>5) 07.12.2022 ci il, fiziki şəxsdən 300 000 ABŞ Dolları məbləğində qısa müddətli kredit alınmasının müzakirəsi; |
| **14.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):** | "KredAqro" BOKT MMC ilə "AzFinance İnvestisiya Şirkəti" QSC arasında 12.12.2022-ci il tarixli Anlaşma Memorandumu imzalanmışdı. |
| **-investisiya qiymətli kağızın növü və forması;** | Adlı, faizli, sənədsiz, təmin edilmiş. |
| **- investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;** | AZ2002009168 , 30.08.2022 ci il |
| **- investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;** | 10000 ədəd, nominal dəyəri 1 000 000 (bir milyon) manat; |
| **- investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;** | Ümumi nominal dəyəri 1 000 000 manat (bir milyon) |
| **- hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir);** | Dividend ödənişi olmayıb |
| **- faizli istiqrazlar buraxılışı haqqında məlumatda<br>- istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;** | İllik 11 % |

| | |
|---|---|
| **- investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda).** | İstiqrazların yerləşdirilməsi "Bakı Fond Birjası" QSC vasitəsi ilə həyata keçirilir. (Ünvan:Bakı ş., Bül-Bül pr.19. Lisenziya № 5, qüvvədə olma müddəti: müddətsizdir, tarix 21.07.00. QKDK tərəfindən verilmişdir ) |
| **15.emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: əqdin məbləği; hesabat tarixinə əqdin ödənilməmiş hissəsi.** | 1) "AqroMostFinans"MMC-dən illik 6 faiz hesablanmaqla 500 000 ABŞ Dolları kredit alınmışdır, hesabat tarixinə qalıq borc yoxdur;<br>2) AR Mərkəzi Bankından illik 0,1 faiz hesablanmaqla 2 414 724 manat kredit alınmışdır, hesabat tarixinə qalıq əsas borc 1 207 362 manat təşkil edir;<br>3) "Azfinance" İnvestisiya şirkətindən 1 000 000 manat məbləğində, təminatlı, sənədsiz, adlı, tədavül müddəti 609 gün, sayı 10 000 ədəd, bir istiqrazın nominal dəyəri 100 (bir yüz) manat və illik faiz dərəcəsi 11 olan istiqraz vərəqələri buraxılıb-qalıq borc 1 000 000 manat; |
| **16.emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:**<br>**- bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;**<br>**- aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi.** | 1) Mehdiyeva Xatirə Balaş qızı-istehlak krediti, 29.08.2022 ci il 2000 AZN məbləğində və 22.12.2022 ci il 2000 AZN məbləğində, Baş Mühasib<br>2) Əkbərov Anar Füzuli oğlu-istehlak krediti, 29.08.2022 ci il 1700 AZN məbləğində və 22.12.2022 ci il 1700 AZN məbləğində, Risklərin İdarə edilməsi Departamentinin rəhbəri<br>3) Quliyev Rauf İslax oğlu-istehlak krediti, 29.08.2022 ci il 2000 AZN məbləğində və 22.12.2022 ci il 2000 AZN məbləğində, Kredit Departamentinin rəhbəri<br>4) Həsənov Hidayət Məhərrəm oğlu- istehlka krediti, 29.08.2022 ci il 5000 AZN məbləğində və 22.12.2022 ci il 5000 AZN məbləğində, - Baş Direktor |

| | |
|---|---|
| | 5) Aydınov Elmar Məhəddin oğlu- istehlak krediti, 29.08.2022 ci il 1000 AZN məbləğində və 22.12.2022 ci il 1000 AZN məbləğində- İnzibati İşlər şöbəsinin müdiri |
| **17.illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi;** | **15.05.2023-ci il** |
| **18.hesabatın açıqlanma mənbəyi haqqında məlumat.** | www.kredaqro.com |

**Direktor:** ____________ **Həsənov Hidayət**

**Baş Mühasib:** ____________ **Məmmədova Nərgiz**